**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**MƏHLUQƏ NOFƏL qızı ABULOVA**

# AZƏRBAYCAN-TÜRKİYƏ STRATEJİ ƏMƏKDAŞLIĞININ DAĞLIQ QARABAĞ PROBLEMİNİN HƏLLİNƏ TƏSİRLƏRİ

**HSM-060213-Beynəlxalq münasibətlər və diplomatiya**

**Magistr elmi dərəcəsi almaq üçün təqdim edilmiş**

**D İ S S E R T A S İ Y A**

Elmi rəhbər: *N.C. Əsədov*

*tarix üzrə fəlsəfə doktoru, dosent*

**BAKI- 2022**

# MÜNDƏRİCAT

**GİRİŞ........................................................................................................................ 4-8**

**I FƏSİL. Azərbaycan-Türkiyə strateji əməkdaşlığının formalaşması və inkişaf mərhələləri...................................................................................................... 9-22**

1.1 Azərbaycan-Türkiyə strateji əməkdaşlığını şərtləndirən amillər ........................................................................................................ 9-18

1.2 Azərbaycan-Türkiyə strateji əməkdaşlığının formalaşması və inkişaf mərhələləri....................................................................................18-22

**II FƏSİL. Azərbaycan –Türkiyə strateji əməkdaşlığının əsas istiqamətləri...23-41**

2.1 Siyasi və iqtisadi sahədə əməkdaşlıq.............................................. 23-32

2.2 Hərbi və digər sahələrdə əməkdaşlıq.............................................. 32-41

**III FƏSİL. Dağlıq Qarabağ münaqişəsinin həllində Türkiyənin rolu.....42-64**

3.1 I Qarabağ müharibəsi dövründə Türkiyənin mövqeyi və fəaliyyəti ...........................................................................................................41-53

3.2 Azərbaycan-Türkiyə strateji əməkdaşlığının sülh danışıqları prosesinə təsiri...................................................................................................53-56

3.3 44 günlük müharibə və torpaqlarımızın azad olunması prosesində

Azərbaycan-Türkiyə strateji əməkdaşlığının rolu............................. 56-64

**NƏTİCƏ.................................................................................................................65-67**

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI............................................ 68-75**

| | |
|---|---|
| ABŞ | -Amerika Birləşmiş Ştatları |
| AXC | -Azərbaycan Xalq Cümhuriyyəti |
| XİN | -Xarici İşlər Nazirliyi |
| SSRİ | -Sovet Sosialist Respublikaları İttifaqı |
| SSR | -Sovet Sosialist Respublikası |
| TANAP | -Trans-Anadolu Qaz Boru Kəməri |
| TAP | -Trans Adriatik Boru Xətti |
| PUA | -Pilotsuz Uçuş Aparatı |
| BTC | -Bakı-Tbilisi-Ceyhan |
| BTƏ | -Bakı-Tbilisi- Ərzurum |
| BOTAŞ | - Boru Xəttləri ilə Petrol Daşıma Anonim Şirkəti |
| SOCAR | -Azərbaycan Respublikası Dövlət Neft Şirkəti |
| PKK | - Kürdüstan Fəhlə Partiyası |
| FETÖ | - Fəthullahçı terror örgütü |
| ATƏT | - Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı |
| NATO | - Şimali Atlantika Müqaviləsi Təşkilatı |
| TBMM | - Türkiyə Böyük Millət Məclisi |
| BMT | - Birləşmiş Millətlər Təşkilatı |
| İƏT | - İslam Əməkdaşlıq Təşkilatı |
| MDB | - Müstəqil Dövlətlər Birliyi |
| SSR | - Sovet Sosialist Respublikası |

# GİRİŞ

**Mövzunun aktuallığı.** XX əsr ərzində Azərbaycan iki dəfə 1918 və 1991-ci ildə müstəqillik əldə etmişdir. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətini (AXC) tanıyan ilk dövlət Osmanlı olmuş, lakin AXC müstəqilliyini uzun müddət saxlaya bilməmiş, 23 ay sonra süqut etmişdir. 1991-ci ildə Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra dünya dövlətləri ilə əlaqələr qurmağa başladı. İlk olaraq 1991-ci ildən Türkiyə Respublikası Azərbaycanın müstəqilliyini tanıdı və 1992-ci ildən diplomatik əlaqələr quruldu. Azərbaycan ilə Türkiyə arasında qurulan və inkişaf etdirilən əməkdaşlıq hər iki dövlətin milli maraqlarına uyğun idi. Azərbaycan-Türkiyə əlaqələrinin inkişaf etməsinin səbəblərindən biri etnik bağların olmasıdır. Cənubi Qafqaz Türkiyəyə yaxın coğrafiyada yerləşən geosiyasi-geostratejik, siyasi, tarixi və sosialoji baxımdan son dərəcə vacib bir bölgədir. Bu bölgədə baş verən hadisələr təhlükəsizlik və digər bir çox səbəblərdən Türkiyəyə təsir edir.

Demokratik inkişaf yolunu seçmiş Azərbaycan müstəqilliyin ilk illərində tarix boyu torpaqlarında gözü olan ermənilərin hücumlarına məruz qalmış və nəticədə təqribən ərazisinin 20 faizi işğal edilmişdir. 30 ilə yaxın bir müddətdə mövcud olmuş Dağlıq Qarabağ probleminin həll edilməsi prosesində müxtəlif dövlətlər iştirak etməyə çalışmışdır. Münaqişənin həll edilməsi üçün yaradılmış ATƏT-in Minsk qrupu illər ərzində fəalliyyət göstərsə də, nəticə etibarı ilə uğursuz olduğu göz önündədir. Ötən illər ərzində Azərbaycan münaqişənin sülh yolu ilə həllində maraqlı olduğunu nümayiş etdirmiş və regional inteqrasiyaya can atdığını göstərmiş, lakin qarşı tərəfin bunlara önəm vermədiyi onun fəalliyyətində öz əksini tapmışdır. Sülh danışıqlarının nəticə vermədiyini görən Azərbaycan 2020-ci ildə əks-hücum əməliyyatlarına başlayaraq 44 gündə işğalı sonlandırmağı bacarmışdır. Qələbənin əldə edilməsində Türkiyənin xüsusi rolunu qeyd etmək lazımdır. Belə ki, Azərbaycanın hərbi gücünün artırılmasında Türkiyənin müstəsna rolu olmuşdur. İstər keçirilən təlimlər, istərsə də Türkiyə müdafiə sənayesinə məxsuz pilotsuz uçuş aparatlarının müharibə zamanı istifadə edilməsi, təqribən 1 milyard dollar dəyərində Ermənistana məxsuz hərbi sursatın məhv edilməsində vacib rol oynamışdır.

2020-ci il 27 sentyabr tarixində Qarabağda işğala son qoyulması ilə nəticələnən 44 gün davam edən müharibənin başlaması və bu dövrdə Türkiyənin Azərbaycana dəstəyini hansı səviyyədə olmasının, bu müharibənin Türkiyə ilə münasibətlərə necə təsir etməsinin öyrənilməsi önəmlidir.

Bütün bunlara görə "Azərbaycan-Türkiyə strateji əməkdaşlığının Dağlıq Qarabağ probleminin həllinə təsirləri" mövzusunun araşdırılmasının elmi, praktiki, siyası, mədəni və mənəvi dəyəri çox yüksəkdir.

**Tədqiqatın öyrənilmə səviyyəsi.** Dissertasiya işinin yazılmasında tədqiqat sahəsinə həsr olunmuş əsərlərdən geniş istifadə olunmuşdur. Araşdırma göstərir ki, Azərbaycan – Türkiyə əlaqələrinə Azərbaycan və türk dillərində bir sıra əsərlər həsr olunmuşdur.

Mahir Qaribovun "XX. Yüzyılda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ sorunu" adlı kitabında (49) münaqişənin tarixi, Azərbaycan torpaqlarının işğalı prosesinə Türkiyə, Rusiya və digər dövlətlərin münasibəti, təklif etdikləri həll yolları haqqında geniş məlumat verilmişdir.

Araz Aslanlının kitab və məqalələrindən dissertasiya işinin yazılmasında geniş istifadə edilmişdir. "Yeni küresel mücadilede Kafkasya və Karabağ sorunu" (42) adlı kitabında Qarabağ probleminin tarixi kökləri haqqında, atəşkəsin və sülh təmin olunması üçün atılan addımlar, problemin həlli yolları haqqında məlumatlar əldə edilmişdir.

Əhmədov Elçinin Ermənistanın Azərbaycana təcavüzü: Beynəlxalq təşkilatlar və böyük dövlətlərin siyasəti" kitabında (16) hadisələr xronoloji ardıcıllıqla verilmiş, böyük dövlətlərin siyasətləri barədə məlumat verilmiş lakin, Türkiyənin siyasəti haqqında geniş məlumat verilməmişdir.

Qasımov R. Y. nın "Azərbaycan Xalq Cümhuriyyəti-Osmanlı münasibətləri" kitabında (27) AXC ilə Osmanlı dövründə olan münasibətlər haqqında məlumat

verilmiş, Azərbaycan ilə Türkiyə arasında münaibətlərin müasir dövrü haqqında məlumat verilməmişdir.

Erdal Akpınarın “Tiflis Ceyhan BTC Ham Petrol Boru Hattı ve Türkiye Jeopolitiğine Etkileri” məqaləsində (35) BTC boru kəməri haqqında məumatlar olsa da digər vacib layihələr haqqında məlumat yox idi.

Bu dissertasiya işində isə Azərbaycan Türkiyə strateji əməkdaşlığının bütün aspektləri araşdırılmış və bir biri ilə əlaqələndirilmişdir. Dağlıq Qarabağ probleminin tarixi araşdırılmış, dövlətlərin münasibətləri təhlil edilmişdir. Türkiyə ilə strateji əməkdaşlığın problemin həllinə təsirləri öz əksini tapmışdır.

**Tədqiqatın mənbə bazası.** Dissertasiya işi yazılarkən zəngin mənbələrdən istifadə olunmuşdur. Dövri mətbuat materiallarından istifadə edilmişdir. “T.C Rəsmi Gazete” arxiv materiallarından Azərbaycan ilə “Türkiyə arasında iqtisadi əlaqələrin hüquqi bazasını təşkil edən 1992-ci ildə imzalanan “Ticarət-İqtisadi Əməkdaşlıq haqqında Saziş” həmçinin ölkələr arası əlaqələrin möhkəmlənməsində “Türkiyə Respublikası ilə Azərbaycan Respublikası arasında dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə müqavilə” haqqında məlumat əldə edilmişdir. (31, 55, 56)

İnternet resurslarında olan rəsmi sənədlər, müqavilələr dissertasiya işinin yazılmasında istifadə edilib. Siyasi və iqtisadi sahədə müqavilələr, iqtisadi əlaqələrin güclənməsinə təsir edən enerji müqavilələri (2, 3, 4, 5, 6) Azərbaycan Respublikasının Prezidentinin rəsmi saytında olan rəsmi bəyanatlar (8, 9) BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağ ilə əlaqəli qətnamələri (15) istifadə edilmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işinin başlıca məqsədi Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında mövcud olmuş əlaqələri, bu əlaqələrin inkişaf mərhələlərinin öyrənilməsi, əsaslı mənbələr əsasında bu əlaqələrin həyata keçirilməsi prosesini araşdırmaq, təhlil etmək və nəticələr çıxarmaqdan ibarətdir. Bu məqsədlərin həyata keçirilməsi üçün dissertasiya işində aşağıdakı vəzifələr qarşıya qoyulur:

-Azərbaycan ilə Türkiyə arasında strateji əməkdaşlığı şərtləndirən amillərin formalaşması və inkişafının öyrənilməsi;

-Azərbaycan və Türkiyə arasında diplomatik-siyasi əlaqələrin öyrənilməsi və mövcud mənbələr əsasında araşdırılması;

- Ölkələr arasında mövcud olan ticarət-iqtisadi münasibətlərin öyrənilməsi, iqtisadi sahədə əməkdaşlığın istiqamətlərinin müəyyən edilməsi;

-Ölkələr arasında hərbi əməkdaşlığın forma və istiqamətlərinin araşdırılması;

-Mövcud mədəni əlaqələrin inkişaf dinamikasının izlənilməsi və onların təhlil edilməsi;

- I Qarabağ müharibəsinə Türkiyənin reaksiyasının təhlil edilməsi;

- Azərbaycan-Türkiyə strateji əməkdaşlığının 44 günlük müharibəyə təsirlərinin öyrənilməsi və nəticəyə gəlinməsi.

**Tədqiqatın obyekti** Azərbaycan-Türkiyə strateji əməkdaşlığı və Dağlıq Qarabağ probleminin həlli.

**Tədqiqatın predmeti** Azərbaycan ilə Türkiyə arasında siyasi münasibətlər, iqtisadi, hərbi, təhsil, mədəni əməkdaşlıq və bunların Dağlıq Qarabağ probleminin həllinə təsirlərinin öyrənilməsidir.

**Tədqiqatın xronoloji çərçivəsi** Azərbaycan xanlıqları dövründə Osmanlı ilə münasibətlərdən başlayaraq, Azərbaycan Xalq Cümhuriyyəti və 1991-ci ildə müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikası ilə Türkiyə arasında mövcud olan əlaqələrin öyrənilməsini, 2020-ci ildə baş verən 44 günlük müharibə və ondan sonrakı dövrü əhatə edir.

**Tədqiqatın metodoloji əsası və metodları.** Tədqiqat işinin metodoloji əsasını elmi-nəzəri yanaşmalar təşkil edir. Dissertasiya işində qarşıya qoyulmuş məsələni tədqiq edərkən nəzəri yanaşma metodu əsas götürülmüşdür və tarixilik, müqayisə,

təhlil, sistemlilik, obyektivlik, ümumiləşdirmə kimi metodlardan istifadə olunmuşdur. Tarixilik prinsipinə əməl olunaraq elmi nəticə çıxarılmışdır.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat işinin elmi yeniliyi aşağıdakılarla xarakterizə olunur:

-Elmi ədəbiyyatların və digər mənbələrin öyrənilməsi və sistemləşdirilməsi nəticəsində Azərbaycan ilə Türkiyə arasında münasibətlər kompleks şəkildə araşdırılmışdır;

-Diplomatik-siyasi münasibətlər siyasi sənədlər əsasında təhlil edilmişdir, onların forma və mahiyyəti araşdırılmışdır;

-İqtisadi sahədə həm ikitərəfli, həm də çoxtərəfli əsasda əlaqələr araşdırılmışdır;

-Hərbi sahədə əməkdaşlığın inkişaf dinamikası öyrənilmiş və müdafiə qabiliyyətinin artmasına təsirləri araşdırılmışdır;

-Ölkələr arasında mədəni sahədə əlaqələr kompleks şəkildə araşdırılmış;

-Dağlıq Qarabağ münaqişəsinin həlli prosesində Türkiyə ilə əməkdaşlığın əhəmiyyəti öyrənilmişdir.

**Tədqiqat işinin praktik əhəmiyyəti.** Tədqiqat işindən Azərbaycan-Türkiyə münasibətlərinin, I Qarabağ müharibəsi dövründə Türkiyənin mövqeyinin, Azərbaycan torpaqlarının işğaldan azad edilməsi prosesinində Türkiyənin rolunun öyrənilməsində dair ümumiləşdirilmiş materialların hazırlanmasında, mühazirələrin tərtibində, 44 günlük müharibə mövzusunda elmi konfransların keçirilməsində istifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası.** Tədqiqat obyekti olan mövzünun ayrı-ayrı aspekləri elmi nəşrlərdə çap edilmiş, elmi konfranslardakı çıxışlarda çıxışlara həsr edilmiş materiallarda öz əksini tapmışdır.

**Tədqiqat işinin strukturu.** Dissertasiya işi giriş, 3 fəsil, nəticə, istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. 3 fəsil 7 yarımfəsli əhatə edir.

# I FƏSİL. AZƏRBAYCAN-TÜRKİYƏ STRATEJİ ƏMƏKDAŞLIĞININ FORMALAŞMASI VƏ İNKİŞAF MƏRHƏLƏLƏRİ

## 1.1 Azərbaycan-Türkiyə strateji əməkdaşlığını şərtləndirən amillər

Azərbaycan və Türkiyə münasibətlərinin əsasında etnik yaxınlıq, din, dil mədəniyyət kimi amillərin eyniliyi dayanır. Hər iki ölkə xalqının kökü oğuz boyundandır. Həmçinin hər iki ölkə əhalisinin əksəriyyəti müsəlmandır. Bütün bunların nəticəsində Azərbaycan Türkiyə münasibətləri daima mövcud olmuşdur, inkişaf etmişdir.

Türkiyə və Azərbaycan türkləri eyni millət olaraq uzun illər birlikdə yaşamışlar. Lakin dövlətləşmə prosesində eyni millətin nümayəndələri ayrı-ayrı dövlətlər qurmuşdur. Xüsusən, Osmanlı və Səfəvi imperiyaları arasında müharibələrin olması müvəqqəti olaraq əlaqələrin zəişləməsinə səbəb olmuşdur. Səfəvi dövlətinin dağılması ilə Azərbaycan torpaqlarında yaranan xanlıqlar ilə Osmanlı imperiyası arasında müxtəlif səviyyədə əlaqələr mövcud olmuşdur. Osmanlı ilə Çar Rusiyası arasında gedən müharibələrdə bir çox Qafqaz xalqları kimi Azərbaycan türkləri də Osmanlı tərəfində mövqe tutmuşdur.

XVIII əsrin II yarısında Azərbaycan xanlıqlarının yarandığı dövrdən Osmanlı ilə mühüm əlaqələr qurulmuşdur. Xanlıqlar daxili və xarici siyasətdə müstəqil olmağa çalışmış və təhlükələrlə qarşılaşdığında Osmanlı dövlətindən yardım istəmişdir. Rusiyanın ekspansiya siyasətinə qarşı xanlıqlar Osmanlıya arxalanırdı. İranın zəifləməsini fürsət bilən Kartli çarı Teymuraz Gəncə və Qarabağı əlində tutmağa çalışırdı. Teymurazın oğlu II İrakli bu xanlıqlarda nizamı saxlamaq və özünü knyaz elan etmək istəyirdi. II İraklinin bu istəyi Azərbaycan xanlıqlarını çox narahat edirdi və buna görə Gəncə xanı Şahverdi xan 1751-ci ildə Osmanlı sultanına məktub göndərdi onu himayə etməsini xahiş etdi. Azərbaycan xanlıqları ilə Osmanlı dövləti qarşılıqlı əlaqələri 1768-1774-cü illərdə baş verən Osmanlı-Rusiya müharibəsi dövründə daha da gücləndi. Osmanlı özünə qarşı yönəlmiş Rusiya-Gürcüstan hərbi bloku ilə mübarizədə Qafqazda müsəlman dövlətləri ittifaqı qurmağa çalışırdı. Xanlıqlara

fərmanlar göndərərək Rusiya ilə mübarizənin vacibliyini bildirirdi. Çünki Osmanlı dövlətinin sərhədlərinin təhlükəsizliyi Cənubi Qafqaza, xüsusən də Azərbaycana bağlı idi. Rusiya-Osmanlı müharibəsində hər iki imperiya Azərbaycan xanlıqlarını öz tərəfinə çəkməyə çalışırdı. Xanlıqlar isə öz müstəqilliyini qorumaq üçün hər iki dövlətdən yardım almağa çalışırdılar. [59, s.29]

Rusiyaya məğlub olub, Krımı itirən Osmanlı üçün Cənubi Qafqazın əhəmiyyəti artdığından bu bölgəyə, xüsusən də Azərbaycana daha çox diqqət etməyə başladılar. Rusiya təhlükəsi artdığından Azərbaycan xanlıqlarının bir çoxu kömək üçün Osmanlıya meyl etdilər. Qubalı Fətəli xan tərəfindən Şamaxıdan qovulan Ağası xan və onun qardaşı Məhəmməd Seyid xan bu dövrdə Osmanlıya daha çox meyl edən xanlar idi. Şəki və Xoy xanları da Osmanlıya yaxınlaşmışdılar. [59, s.30]

İmperatorluğun sərhəd vilayətləri, xüsusən Çıldır vilayətinin hakimi Süleyman Paşa Azərbaycan xanlıqları ilə Osmanlı dövləti arasında əlaqələrin qurulmasında mühüm rol oynayırdı. Dağıstan feodallarına qarşı mübarizədə Qubalı Fətəli xanın yardım istəməsindən istifadə edən rus silahlı qüvvələrinin 1775-ci ildə Dərbəndə girməsi Osmanlı imperatorluğunda narahatlığa səbəb olmuş və nota göndərməsi ilə nəticələnmişdi. Rusiya Osmanlı münasibətləri gərginləşdirməmək üçün Rus çariçasının göstərişi ilə rus silahlıları Dərbənddən çıxarılmışdı. [59, s.30]

1779-ci ildə Qubalı Fətəli xan, Şəkili Hüseyn xan və bir qrup Dağıstan hakiminin birləşib Qarabağ xanlığına yürüş etmək istədiyini bildiyində, Osmanlı sultanı xüsusi fərman göndərərək bu yürüşün dayandırılmasını istəmişdi. Osmanlı höküməti Azərbaycan xanlıqları arasında olan mübahisələri aradan qaldırmağa çalışırdı, çünki Rusiya və Gürcüstanın bundan faydalanacağını düşünürdü. [59, s.31]

1781-ci ildə Rus hökümətinin Xəzərin cənub qərb sahillərinə hərbi dəstələr göndərməsi Osmanlını çox narahat edirdi. Qarabağ ərazisində özünə dövlət qurmaq istəyən ermənilər də fəallaşmışdı, buna görə də bəzi xanlıqlar kömək üçün Osmanlıya üz tutdular. Lakin bu dövrdə Osmanlı zəiflədiyi üçün Rusiya ilə müharibə aparacaq

gücdə deyildi. Bu səbəbdən mənəvi təsir vasitəsi ilə, pul və hədiyyələr göndərərək rus-erməni-gürcü ittifaqına qarşı Azərbaycan xanlıqlarını qorumağa çalışmışdı. [59, s.31]

1783-cü ildə Kartli-Kaxetiya çarlığının rus himayəsini qəbul etməsinə cavab olaraq, Osmanlı höküməti bütün Azərbaycan xanlıqlarını və Dağıstan feodallarını birləşməyə, torpaqlarını Rusiyaya verməməyə çağırmışdı. Bu çağırışın nəticəsi olaraq Cənubi Qafqazda etirazlar başlamışdı. Osmanlı 1783-cü ildə Azərbaycan xanlıqları və Dağıstan feodalları ilə ittifaq qurmaq məqsədilə nümayəndə heyəti göndərmişdi. Bu çağırışın nəticəsində 1784-cü ildə 8000 döyüşçü Şuşaya toplanmışdı. Lakin Rusiyanın qarşı tədbirləri nəticəsində Azərbaycan xanlıqları və Dağıstan feodallarının Rusiyaya qarşı etirazları nəticə verməmişdi. Buna görə Qubalı Fətəli xan və bir qrup Azərbaycan xanı kömək üçün Osmanlı sultana müraciət etmişdilər. [59, s.31]

1787-ci ildə başlayan Rus-Osmanlı müharibəsində Osmanlı Azərbaycan xanlıqlarının qüvvələrindən istifadə etmək istəyirdi. Sultan fərmanlar göndərərək xanlıqları ümumi düşmənə qarşı birləşməyə çağırırdı. Bəzi xanlar sultanın bu çağırışına müsbət cavab vermişdi. Osmanlı üçün Quba xanlığının geostrateji əhəmiyyəti var idi. 1787-1791-ci illərdə baş verən müharibədə xanlıqların müharibəyə birbaşa hərbi yardım etməsi barədə məlumat yoxdur. Xanlıqlar arasında gərginliyin mövcud olduğu bu dövrdə Rusiya ilə mübarizə aparmaları mümkün deyildi. Müharibədə qalib gələn Rusiya Yassı sülh müqaviləsi ilə Osmanlının Qafqazda fəallaşmasına mane oldu və 1792-ci ildən Osmanlının Cənubi Qafqaz siyasəti dəyişdi. Bu bölgədə hökmranlıq etmək istəyən Qacar ağa Məhəmməd xan Cənubi Qafqazda fəallaşdı və bəzi xanlıqları özündən asılı vəziyyətə gətirdi. Azərbaycanın şimal xanlıqları Qacar təhlükəsinə qarşı Osmanlıya müraciət etdilər. Qarabağ xanı İbrahim xan sultana göndərdiyi məktubda iyirmi ildən çox Osmanlıya xidmət etdiyini xatırladaraq, Qacarın xanlıqlar üçün təhlükəli olduğunu bildirir və sultandan xanlıqlara yardım etməsini tələb edirdi. [59, s.34] Lakin Osmanlı sultanı həm Qacar, həm də Azərbaycan xanlıqları ilə münasibətləri korlamaq istəmirdi buna görə də yalnızca Azərbaycandan pənah gətirənlər olarsa, onları qəbul edəcəyini və geri dönmək istəyənlərə mane olmayacagını bildirmişdi.

1796-cı ildə rus qüvvələrinin Azərbaycana hücumlarına biganə qalmayan Osmanlı sultanı III Səlim rusların Cənubi Qafqazda güclənməsinə mane olmağa çalışırdı. Rus işğalı ilə barışmaq istəməyən feodallar Osmanlının təkidi ilə Qubada yerləşən rus qüvvələrinə hücum etdilər. Rusların nəzarətindən qaçan Qubalı Şeyx Əli xan insanları ruslar ilə mübarizəyə çağırdı. [59,s.35] XVIII əsrin sonlarında Osmanlının Azərbaycana diqqəti azalmışdı. 1801-ci ildə ruslar Azərbaycanı işğal etməyə başlayarkən xanlıqlar Osmanlıdan yardım istəsələr də, Osmanlı hərbi yardım göstərmək gücündə deyildi və yalnız mənəvi dəstək göstərməklə kifayətlənmişdi. 1806-1812-ci illərdə Rusiya ilə Osmanlı arasında baş verən müharibədə məğlub olan Osmanlı 1812-ci ildə Buxarest müqaviləsi ilə şimal xanlıqlarının Rusiya tərəfindən işğalını tanımışdı. Bütün bunlara əsasən demək olar ki, XVIII əsrdə Azərbaycan ilə Osmanlı arasında münasibətlər hər zaman eyni səviyyədə olmayıb. [59, s.36]

İran ordusu 1812-ci ildə Lənkəran xanlığının ruslar tərəfindən işğal edilməsinə qarşı mübarizə aparmaq istəsə də, məğlub olmuş və 1813-cü il Gülüstan müqaviləsini imzalamışdı. Rusiyanın Azərbaycan xanlıqlarını bir-bir işğal etməsi Osmanlı İmperiyasını İrana yaxınlaşdırdı. Osmanlının təşviqi ilə İran yenidən Qazqazda itirdiklərini geri qaytarmaq ümid ilə ruslarla mübarizə etsə də, uğursuzluqla nəticələnmiş və 1828-ci ildə Türkmənçay müqaviləsi imzalamalı olmuşdu. Bu iki müqavilə ilə Şimal və Cənub olmaqla iki yerə bölünən Azərbaycan torpaqlarının şimal hissəsi Rusiyanın, cənub hissəsi isə İranın hakimiyyəti altına alınmışdır. [46, s.62]

Osmanlı Qafqazda baş verən problemlərin həll edilməsində maraqlı idi. Ermənilərin Azərbaycan torpaqlarına təhlükə yaratması Osmanlı üçün də hədə hesab olunurdu. Bəzi böyük dövlətlər erməniləri qorumaq adı ilə Qafqaza daxil olması və burada möhkəmlənməsi Osmanlının Qazqaz siyasətinə uyğun deyildi. Ermənilərin Türkiyə və Azərbaycan torpaqları hesabına “Böyük Ermənistan” yaratmaq arzusunu reallaşdırmaq istəməsinə və Azərbaycan türklərinin soyqırımlara məruz qalmasına Osmanlı biganə qala bilməzdi. [54]

1917-ci ilin sonlarında ermənilər öz məqsəd və siyasətlərini açıqladıqda və Azərbaycan sərhədlərində zorakılıq törətməsiylə Osmanlı tədbirlər görməyə məcbur oldu. İlk olaraq hərbi əməliyyatları dayandırmaq və sabitliyə nail olmaq məqsədi ilə diplomatik yola əl atdı və 5 dekabr 1917-ci ildə 14 maddədən ibarət Ərzincan atəşkəsi təklif edildi. Bu atəşkəs ermənilərin arxalandığı rus əsgərlərinin Qafqazdan getməsində və Azərbaycan topraqları olan Naxçıvan, Zəngəzur və Qarabağın erməni təcavüzündən qorunmasında önəmli rola malik idi. Lakin bu atəşkəsə rus ve ermənilər tərəfindən uzun müddət riayət olunmadı. [54]

1917-ci ilin sonları 1918-ci ilin əvvəllərində Ermənilərin İrəvan vilayətinin müsəlmanlar yaşayan kəndlərində törətdiyi vəhşiliklər Osmanlı silahlı qüvvələrinin hərbi əməliyyatlara başlamasına səbəb oldu. Qafqaz ordusunun baş komandiri Mehmet Vehip Paşa hərbi əməliyyatların humanitar xarakter daşıdığını Ermənilərin Cənubi qafqazda törətdiklərinə qarşı yönəlmiş və sülhün pozulması kimi qiymətləndirilməməli olduğunu bildirmişdir.  [54]

1918-ci ildə Cənubi Qafqazda vəziyyət qeyri-sabit idi. Cənubi Qazqaz seyminin müsəlman fraksiyası Azərbaycanın vəziyyətindən narahat olduqları üçün müxtəlif ehtiyat tədbirləri görməyə məcbur idi. Bu vəziyyətdə siyasi-hərbi dəstək almaq üçün Osmanlı ən doğru seçim idi. Osmanlının Azərbaycanı siyasi cəhətdən dəstəkləməsi, Naxçıvan, Zəngilan və Qarabağ bölgəsinə hərbi yardım göndərməsi Azərbaycan Xalq Cümhuriyyəti (AXC) dövründə baş tutdu. [54] 26 may 1918-ci ildə Cənubi Qazqaz Seyminin fəaliyyətini sonlandırması və 1918-ci ilin 26 may tarixində Gürcüstan, 28 may tarixındə isə Azərbaycan və Ermənistan müstəqilliyini elan etməsi nəticəsində Osmanlı müstəqil dövlətlər ilə Batum konfransında danışıqları davam etdirdi. [27, s.86] Müstəqillik olduqdan sonra Gürcüstanın paytaxtı Tiflis, Ermənistanın paytaxtı Yeravan, Azərbaycanın paytaxtı isə Gəncə oldu. AXC-nin Bakını paytaxt elan edə bilməməsinin səbəbi isə Şaumyanın Bakını işğal etməsi idi. Azərbaycanın bütövlüyü və təhlükəsizliyinin təmin olunması baxımından AXC, Osmanlı və Zaqafqaziya dövlətlərinin iştirakı ilə baş tutan Batum danışıqlarının xüsusi əhəmiyyəti mövcuddur. Ermənistan və Gürcüstan isə Osmanlı ilə danışıqların keçirilməsində maraqlı deyildi.

Danışıqlar nəticəsində 4 iyun 1918-ci ildə Ermənistan və Gürcüstan ilə Osmanlı arasında “Sülh və Dostluq müqaviləsi”, Osmanlı ilə AXC arasındakı münasibətlər baxımından önəmli hesab edilən “Dostluq müqaviləsi” bağlandı. Müqavilənin adından göründüyü kimi Osmanlının hökümətinin yeni yaranan bu dövlətlərlə münasibəti eyni səviyyədə olmamışdır. Osmanlı ilə Azərbaycan arasında müharibələrin olmaması səbəbindən iki ölkə arasında sülh müqaviləsi imzalamağa ehtiyac duyulmamışdır. [27, s.95]

Müqavilənin 3-cü maddəsi (Zaqafqaziya dövlətlərinin sərhədlərini müəyyən edən maddə) Azərbaycanın Naxçıvan, Qarabağ və Zəngəzur rayonlarının torpaq mənsubiyyətinin obyektiv həlli baxımından da mühüm əhəmiyyət kəsb edir. 4-cü maddə Osmanlının Azərbaycana siyasi-hərbi yardım göstərməsi baxımından önəmli idi. Bu maddədə ölkədə təhlükəsizliyin və asayişin təmin edilməsinə ehtiyac yaranarsa, Osmanlı hökumətinin Azərbaycan hökumətinə hərbi yardım göstərə biləcəyi qeyd edilirdi. [54]

Osmanlı AXC tərəfindən edilən müraciətlərə cavab olaraq, Nuru paşanın rəhbərliyi ilə Qafqaz islam ordusunu Bakının azad edilməsi ugrunda mübarizəyə qoşuldu və 15 sentyabr Baknın azad edilməsinə nail oldu. Bununla da, paytaxtın Gəncədən Bakıya köçürülməsi təmin edildi. [12]

Uzun müddət müstəqilliyini saxlaya bilməyən AXC 23 aydan sonra süqut etdi və bu ərazilər SSRİ tərkibinə daxil edildi. SSRİ dövründə Azərbaycan Türkiyə münasibətləri çox aşağı səviyyədə idi.

Azərbaycan yenidən müstəqilliyini 1991-ci ildə bərpa etməsi ilə artıq beynəlxalq münasibətlər sisteminə qoşuldu və müstəqil Azərbaycana səfər edən ilk xarici heyət Türkiyə Xarici İşlər Nazirliyinin nümayəndələri oldu.12-14 sentyabr 1991-ci ildə baş tutmuş görüşdən sonra 9 noyabr 1991-ci ildə Baş nazir Mesud Yılmaz Azərbaycanı tanıyan ilk dövlətin Türkiyə olduğunu bildirdi. Türkiyə ilə Azərbaycan arasında diplomatik münasibətlər 14 yanvar 1992-ci ildə quruldu və Türkiyənin Azərbaycandakı səfirliyi fəaliyyətə başladı. Diplomatik səfərlər iki ölkə arasında

münasibətlərin inkişafında xüsusi rola malik olmuşdur. 1-3 may 1992-ci il tarixində Türkiyə Prezidenti Turqut Özalın Azərbaycana səfəri zamanı birgə bəyanat imzalandı. Bu sənəd qarşılıqlı əlaqələrin əsas prinsiplərini və inkişaf perspektivini müəyyən edirdi. Hər iki dövlət tarixi bağlılıq və qarşılıqlı fayda əldə etmək məqsədi ilə əməkdaşlığı inkişaf etdirməkdə həvəsli idi. Diplomatik münasibətlər qurulduqdan sonra iki ölkə arasında siyasi, hərbi, iqtisadi, təhsil, mədəniyyət və başqa sahələrdə münasibətlər qurulmuş, inkişaf üçün müxtəlif addımlar atılmışdır. Azərbaycan Prezidenti Heydər Əliyevin işlətdiyi "bir millət, iki dövlət" ifadəsi ölkələr arasında münasibətlərin nə dərəcə inkişaf etdiyinin göstəricisidir. Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" ifadəsi doğruluğunu hər zaman sübut etmişdir. [67]

Müstəqilliyini yeni bərpa etmiş Azərbaycanın sərhədlərinin pozulmasına, torpaqlarının Ermənistan tərəfindən işğal edilməsinə Türkiyə Respublikası biganə qalmamış və Ermənistana siyasi təzyiqlər göstərərək, onu bu əməlindən çəkindirməyə çalışmışdı. Kəlbəcərin işğalından sonra isə Ermənistan ilə sərhədləri bağlamışdı. Bu addım Azərbaycan tərəfindən yəksək qiymətləndirilir və qarşılıqlı münasibətlərə məsbət təsir göstərmişdi. Türkiyə yalnız Azərbaycan torpaqlarının qaytarılması şəraitində sərhədlərin açılmasının mümkun olacağını bildirmişdi. [52]

Azərbaycan və Türkiyə hökümətləri yalnız ikitərəfli münasibətlər çərcivəsində deyil, regional və beynəlxalq sferada əməkdaşlığa xüsusi önəm verirlər. Müxtəlif beynəlxalq və regional təşkilatlarda əməkdaşlıq edir və təşkilatlar çərcivəsində bir birini daima dəstəkləyirlər.

Azərbaycan Türkiyə arasında enerji sahəsində əməkdaşlıq müstəqilliyin ilk illərindən inkisaf etdirilmişdir. Belə ki, 1994-cü ildə imzalanan Əsrin müqaviləsində Türkiyənin "Türkiyə petrolları" şirkəti də iştirak edirdi. [29]

Növbəti layihə olan Bakı-Tbilisi-Ceyhan (BTC) Türkiyə Azərbaycan enerji sahəsində olan münasibətlərə müsbət təsir etdi. Bu layihənin Türkiyə üçün önəmi nəqliyyat marşrutunun onun ərazisindən keçməsi və beləliklə, enerji sahəsində xüsusi

rola malik olmasıdır. Bu layihə nəticəsində Azərbaycan nefti Gürcüstandan keçərək Türkiyəyə çatdırıldı. BTC Türkiyə üçün digər əhəmiyyəti artıq neft Bosfor boğazından keçərək deyil, digər yolla daşınacaqdı. BTC layihəsi Türkiyə Azərbaycan arasında enerji sektorunda əməkdaşlığın uğurla inkişafına təsir göstərdi və Azərbaycanın Azəri, Çıraq və Günəşli yataqlarından çıxarılan neft Ağdənizə nəql edildi. 18 noyabr 1999-cu ildə İstanbulda keçirilən görüşdə BTC-nın inşasına dair Azərbaycan, Gürcüstan və Türkiyə, ABŞ, Qazaxıstan arasında saziş bağlandı. [35, s.241]

Layihə Türkiyə iqtisadiyyatına canlanma gətirmiş, boru xəttinin keçdiyi şəhərlərin sosial-iqtisadi vəziyyətinə müsbət təsir göstərmiş, Ceyhanı dünya neft bazarında vacib mərkəzə çevrilmiş, Türkiyənin liman xidmətlərində fayda əldə etməsində mühüm rol oynamışdır. Enerji sahəsində idxaldan asılı olan Türkiyə ucuz və daimi idxal imkanı əldə etmişdir. Türkiyə kirayədən ildə təqribən 300 milyon dollar gəlir əldə edir. Neft və qaz ehtiyatları ilə zəngin olan Xəzər dövlətləri və Türk dünyası ilə əvvəllər sosial-mədəni sahədə əlaqələr mövcüd olsa da, geosiyasi baxımdan layihə nəticəsində iqtisadi sahədə əməkdaşlıq gücləndi. Layihənin Azərbaycan üçün önəmi Rusiyadan asılı olmadan dünya bazarına enerji ehtiyatlarını çıxarmaq imkanı qazandırması oldu. BTC boru kəməri Azərbaycan və Türkiyənin siyasi gücünü artıran amilə çevrildi. [35, s.243]

Bakı-Tbilisi-Ərzurum (BTƏ) təbii qaz kəmərinin tikintisi üçün ilk mərhələ 1994-cü ildə "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə Müqavilə" olmuşdur. Müqavilədə Azərbaycanın hasil etdiyi neftlə bərabər təbii qazın da Türkiyəyə ixracı qeyd olunmuşdu. Lakin BTƏ xəttinin tikintisi üçün əsas zəmin 2001-ci ildə "Azərbaycan təbii qazının Türkiyə Cümhuriyyətinə tədarük edilməsinə dair Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında imzalanan Saziş" olmuşdur. BOTAŞ ilə SOCAR arasında 6,6 milyard $m^3$ təbii qazın idxalına dair təbii qazın alqı-satqısı müqaviləsi imzalanmışdır. 2007-ci ildən boru kəməri istifadə edilməyə başlanmışdır. Layihənin məqsədi Azərbaycana məxsus Şahdəniz yatağından çıxarılan təbii qazın Türkiyə vasitəsi ilə Avropaya çatdırılmasıdır. Lakin Türkiyə üçün əsas önəm Türkiyə

ilə Azərbaycanın və digər Qafqaz ölkələrinin enerji sahəsində əməkdaşlığı baxımından ayrılmaz tərəfdaşlar olmasıdır. Xüsusən gələcəkdə Qazaxıstan və Türkmənistanın da bu layihəyə daxil edilməsi Türkiyənin Mərkəzi Asiya dövlətləri ilə əlaqələrinin güclənməsi ilə nəticələnəcəkdir. [47, s.44]

BTC və BTƏ layihələrindən sonra Azərbaycan və Türkiyə əlaqələrinin möhkəmlənməsinə təsiri böyük olan Cənub Qaz Dəhlizi layihəsi meydana gəldi. Layihə Cənubi Qazqaz Boru Kəmərini, Trans Anadolu Təbii Qaz Boru Kəmərini (TANAP) və Trans Adriatik Boru Kəmərini(TAP) birləşdirir. Cənub Qaz Dəhlizi Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən Şahdəniz yatağından çıxarılan təbii qazın Türkiyə vasitəsi ilə Avropaya nəql edilməsini təmin edən bir layihədir. [48, s.11]

Cənub Qaz Dəhlizi Xəzər qazının Türkiyə vasitəsi ilə Avropaya daşıyaraq, Avropanın qaz ehtiyacının daha təhlükəsiz və davamlı şəkildə qarşılanmasını təmin edir. Həmçinin  bu layihə Avropanın enerji sahəsində Rusiyadan olan asılılığının azaltmaqla yanaşı Azərbaycan və Türkiyənin geosiyasi mövqeyini gücləndirir. [48, s.12]

Cənub Qaz Dəhlizinin bir hissəsi olan TANAP layihəsi Azərbaycan və Türkiyənin birlikdə icra etdiyi layihədir. TANAP layihəsinin həyata keçməsi Azərbaycan və Türkiyənin Avropa bazarına birlikdə çıxmasıyla nəticələndi. TANAP layihəsində 30 % paya sahib olan Türkiyə həm öz ehtiyaclarını təmin edəcək, həm də torpaqları vasitəsi ilə təbii qazın daşınmasından gəlir əldə edəcəkdir. [48, s.22] TANAP boru kəmərinin Türkiyəyə giriş nöqtəsi Türkiyə-Gürcüstan sərhədində yerləşən Ərdahan vilayətidir. Türkiyə ərazisində keçdikdən sonra Yunanıstan sərhədində Ədirnədən başlayaraq TAP kəməri ilə birləşməsi nəzərdə tutulmuşdur. Uzunluğu 1850 km olan TANAP kəmərinin 20 km-i Mərmərə dənizinin altından keçir. Azərbaycan TANAP layihəsində mənbə ölkədir Türkiyə və Gürcüstan həm istehlakçı, həm də tranzit ölkələrdir. TAP layihəsi Türkiyə Yunanıstan sərhəddindən TANAP vasitəsi ilə gələn qazın Albaniya və Adriatik dənizindən keçərək, İtaliyaya qədər daşınmasını və oradanda Avropa ölkələrinə nəql edilməsini nəzərdə tutur. [48, s.16]

Dənizə çıxışı olmayan Azərbaycanın öz təbii enerji ehtiyatlarını dünya bazarına çıxarmasında Türkiyə vacib transit ölkədir. Enerji sahəsində idxaldan asılı olan və getdikcə ehtiyacları artan Türkiyə üçün daimi və ucuz enerji istehsalçısı ilə əməkdaşlıq çox önəmlidir. Türkiyə şərq və qərb arasında körpü rolu oynayır. Bu yönümlü layihələrin həyata keçirilməsi enerji sahəsində Azərbaycan və Türkiyə arasında əməkdaşlığı inkişaf etdirir. [48, s.18]

## 1.2 Azərbaycan-Türkiyə strateji əməkdaşlığının formalaşması və inkişaf mərhələləri

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra 9 noyabr 1991-ci ildə onu ilk tanıyan dövlətin Türkiyə olmasının səbəbi iki ölkə arasında mövcud olan tarixi bağlılıqdır. İlk diplomatik əlaqələr 14 yanvar 1992-ci ildə qurulmuş, elə həmin il Azərbaycanın Türkiyədə səfirliyi, 1993-cü ildə İstanbulda, 2004-cü ildə isə Qarsda konsulluğu fəaliyyətə başlamışdır. Müstəqillikdən sonra Azərbaycan ilə Türkiyə arasında strateji əməkdaşlığın inkişafı üçün bir sıra müqavilələr imzalanmış, müxtəlif təşkilatlar və zirvə görüşləri çərçivəsində münasibətlər inkişaf etdirilmişdir. [67] Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında strateji əməkdaşlığın qurulmasında 1992-ci ildən keçirilməyə başlanmış Türkdilli ölkələrin dövlət başçılarının zirvə görüşlərinin önəmi olmuşdur. İlk görüş Ankarada keçirildikdən sonra, 1993-cü ildə Azərbaycan, Türkiyə, Qırgızıstan, Özbəkistan, Qazaxıstan Mədəniyyət Nazirləri tərəfindən imzalanan müqavilə ilə türk dünyası ölkələrini bağlarını möhkəmləndirəcək bir təşkilat olan Türksoy yaradıldı. Türkdilli ölkələrin dövlət başçılarının II zirvə görüşü 1994-cü ildə İstanbulda, III görüş 1995-ci ildə Bişkekdə, IV görüş 1996-ci ildə Daşkənddə keçirilmiş və Daimi Katibliyin təsis edilməsi haqqında razılığa gəlinmiş, 1998-ci ildə Nur-sultanda (Astana) V görüşdə Daimi Katibliyin Nizamnaməsi qəbul edilmiş, 2000-ci ildə Bakıda keçirilən VI görüşdə Daimi Katibliyin Türkiyədə açılması qərara alınmış, VII görüş 2001-ci ildə İstanbulda keçirilmişdir. 5 il fasilədən sonra Türkiyənin təşəbbüsü ilə 2006-cı ildə Antalyada VIII görüş keçirilmişdir. IX görüş isə 30 oktyabr 2009-cu ildə Naxçıvanda keçirilmiş və görüş çərçivəsində Naxçıvan sazişi ilə Türkdilli Dövlətlərin Əməkdaşlıq

Şurasının yaradılması haqqında razılıq əldə edilmişdir. X görüş 2010-cu ildə İstanbulda baş tutmuşdur. Növbəti görüşlərin 2011-ci ildə Qazaxıstanda, 2012-ci ildə Qırğızıstanda keçirilməsi planlanmışdı. Lakin Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasının yaradılmasından sonra ölkələr bu şura çərçivəsində əməkdaşlıqlarını davam etdirmişlər. [73]

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının ilk zirvə görüşü 20-21 oktyabr 2011-ci il tarixində Almatı şəhərində "iqtisadi əməkdaşlıq" mövzusunda, II zirvə görüşü 22-23 avqust 2012-ci il tarixində Bişkek şəhərində "təhsil, elm və mədəniyyət sahəsində əməkdaşlıq" mövzüsünda, III zirvə görüşü 15-16 avqust 2013-cü il tarixlərində Qəbələ şəhərində "nəqliyyat və bağlantı" mövzüsünda, IV zirvə görüşü 4-5 iyun 2014-cü il tarixlərində Bodrum şəhərində "turizm sahəsində əməkdaşlıq" mövzusunda, V zirvə görüşü 10-11 sentyabr 2015-ci il tarixində Nur-Sultan şəhərində "media və informasiya sahəsində əməkdaşlıq" mövzusunda, VI zirvə görüşü 3 sentyabr 2018-ci il tarixində Çolpan-Ata şəhərində "Gənclər və İdman" mövzusunda, VII görüş 15 oktyabr 2019-cu il tarixində Bakı şəhərində "Kiçik və Orta Sahibkarlığın Dəstəklənməsi" mövzusunda keçirilmişdir. 10 aprel 2020-ci ildə videokonfrans formatında keçirilən fövqəladə zirvə görüşündə "COVID-19 pandemiyası ilə mübarizədə həmrəylik və əməkdaşlıq" mövzüsu müzakirə edilmiş və "Bakı bəyannaməsi" qəbul edilmişdir. 31 mart 2021-ci ildə yenidən videokonfrans formatında qeyri-rəsmi zirvə görüşü keçirilmişdir. [1]

12 noyabr 2021-ci ildə İstanbul şəhərində keçirilən VIII zirvə görüşündə sədrlik Türkiyəyə ötürülmüşdür. Həmçinin bu görüşdə üzv dövlətlər şuranın adının dəyişdirilərək bundan sonra "Türk dövlətləri təşkilatı" adlandırılmasına qərar vermişdirlər. [24]

Azərbaycan Türkiyə arasında strateji əməkdaşlığın inkişaf etməsində 16 avqust 2010-cu ildə iki ölkə arasında 23 maddədən ibarət olan "Strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında müqavilə"nin önəmli rolu olmuşdur. Müqavilənin maddələrində

hərbi-siyasi və təhlükəsizlik; hərbi və hərbi-texniki əməkdaşlıq; iqtisadi əməkdaşlıq; humanitar məsələlər; ümumi və yekun müddəalar yer almışdır. [5]

"Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurası"nın yaradılması iki ölkə arasında strateji əməkdaşlığın inkişafında xüsusi rol oynamışdır. Şuranın yaradılması haqqında birgə bəyanət 15 sentyabr 2010-cu ildə İstanbulda imzalanmışdır.

Şura Azərbaycan və Türkiyə arasında mövcud olan əlaqələrin strategiyasını müəyyənləşdirməklə, yeni layihələrin həyata keçirilməsində vacib rol oynayır. [6]

Şuranın I iclası 25 oktyabr 2011-ci ildə İzmirdə keçirilmiş və iki ölkə arasında müxtəlif sahələrdə münasibətlərin inkişafı müzakirə edilmişdir. [32]

11 sentyabr 2012-ci ildə Qəbələdə şuranın II iclası keçirilmiş, iclasdan sonra iki ölkə arasında müxtəlif sahələri əhatə edən 7 sənəd imzalanmışdır. [23]

III iclas 13 noyabr 2013-cü ildə Ankarada təşkil edilmişdi. 2011-ci ildən bəri hər il mütəmadi olaraq keçirilən görüşlər sayəsində ikitərəfli münasibətlərin və əməkdaşlığın yüksək səviyyədə olmasından məmnunluq ifadə olunmuş və iki ölkə arasında sıx əməkdaşlığın konkret layihələr əsasında daha da inkişaf etdirilməsi üçün mövcud ümumi siyasi iradə vurğulanmışdır. İki ölkənin də qlobal iqtisadi böhrana baxmayaraq iqtisadi sahədə inkişafa nail olduğu, enerji və tranzit sahəsində əməkdaşlıq etdiyi, terrorizmlə mübarizədə beynəlxalq səviyyədə əməkdaşlıq etdiyi, Azərbaycanın ərazi bütövlüyü nəzərə alınaraq torpaqları işgal edən Ermənistanın qeyd-şərtsiz əraziləri tərk etməsi, iqtisadi sahədə ikitərəfli münasibətlərdə mövcud olan inkişafın davam etdirilməsi planlanmışdır. 2023-cü ilə qədər ticarət dövriyyəsinin 15 milyarda çatdırılması hədəflənmiş; təhlükəsizlik, müdafiə və müdafiə sənayesi sahəsində strateji əməkdaşlığın genişləndirilməsi kimi bir sıra məsələlər müzakirə edilmişdir. [68]

IV iclas 15 yanvar 2015-ci ildə Ankarada keçirilmişdir. İclasdan sonra keçirilən mətbuat konfransında Prezident Rəcəb Tayyib Ərdoğan qarşılıqlı münasibətlərin daima inkişaf etdirildiyini bildirmişdir. Öz çıxışında Dağlıq Qarabağ münaqişəsinə yer

ayıran prezident, Minsk qrupunun fəaliyyətindən məmnunsuzluğunu bildirmiş, sadəcə vaxt itkisinə səbəb olduğunu söyləmiş, problemin həll olunmasında Türkiyənin hər zaman Azərbaycana dəstək olduğunu vurğulamışdır. 2015-ci ildə G-20 ev sahibliyi edəcək Türkiyənin dəvəti ilə Azərbaycanında orada iştirak etməsini təmin edəcəyini bildirmişdir. [8]

18 fevral 2016-ci ildə Bakıdan keçirilməsi nəzərdə tutulan Şuranın növbəti iclası 17 fevral tarixində və 13 mart tarixində PKK terror qruplaşması tərəfindən həyata keçirilən terror hadisələri səbəbi ilə iki dəfə təxirə salınmışdır. Rəcəb Tayyib Erdoğanın Bakı səfərinin baş tutmaması ilə İlham Əliyev iclasın keçirilməsi üçün Ankaraya səfər edəcəyini açıqlamış və 15 mart tarixində şuranın V iclası baş tutmuşdur. Bu hadisə türk mediasında "Əliyevdən böyük jest" başlıqları ilə yayımlanmış. Prezidənt Rəcəb Tayyib Ərdoğan "qara gün dostu olduğunu göstərdiyi üçün" türk xalqı adından İlham Əliyevə və bütün Azərbaycana təşəkkür etmişdir. [36]

Növbəti iclas Bakı şəhərində 2017-ci il 31 oktyabrda baş tutdu. İclasdan bir gün əvvəl 30 oktyabr tarixində iki ölkə üçün də xüsusi əhəmiyyətə malik Bakı-Tbilisi-Qars dəmiryolu layihəsinin açılış mərasimi keçirildi. Şuranın VI iclasında bu layihənin strateji əhəmiyyəti vurğulanmış, Azərbaycan-Gürcüstan-Türkiyə arası münasibətlərə və ölkələrin geosiyasi əhəmiyyətinə göstərəcəyi təsir qeyd edilmişdir. [19]

Şuranın VII iclası 25 aprel 2018-ci ildə Ankarada keçirilmiş. İclas çərçivəsində prezidentlər həm təkbətək, həm də nümayəndə heyətinin iştirakı ilə müzakirələr aparmış, TANAP layihəsinin baş tutmasında hər iki ölkənin maraqlı olduğunu, həmçinin layihənin yalnız Azərbaycan Türkiyə arasında enerji ticarətinin deyil, Avropanın enerji tələbatının ödənilməsində xüsusi rol oynayacağını vurğulanmışdır. İqtisadi, ticari sahə ilə yanaşı müdafiə sahəsində əməkdaşlığın gücləndiriləcəyini bildirmişlər. FETÖ terror təşkilatı ilə mübarizədə həmçinin "Zeytun budağı" əməliyyatı zamanı Azərbaycanın Türkiyəyə, Dağlıq Qarabağ münaqişəsində Türkiyənin Azərbaycana dəstəyi qeyd olunmuşdur. [9]

Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının sonuncu iclası 25 fevral 2020-ci tarixində Bakıda keçirilmişdir. Rəcəb Tayyib Ərdoğan və Ilham Əliyev arasında baş tutan görüşdə iki ölkə arasında siyasi, iqtisadi, hərbi, ticari, mədəni əlaqələr, TANAP layihəsinin münasibətlərin inkişafındakı rolu müzakirə edilmiş. Hədəf olaraq ticarət dövriyyəsinin 15 milyard dollara çatdırılması göstərilmişdir. [11]

Bütün bunlar göstərir ki, Azərbaycan və Türkiyə həm ikitərəfli münasibətlər çərçivəsində, həm digər dövlətlərin də iştirak etdiyi zirvə görüşləri və təşkilatlar çərçivəsində strateji əməkdaşlığın inkişaf etdirilməsində iqtidarındadır.

# II FƏSİL. AZƏRBAYCAN – TÜRKİYƏ STRATEJİ ƏMƏKDAŞLIĞININ ƏSAS İSTİQAMƏTLƏRİ

## 2.1 Siyasi və iqtisadi sahədə əməkdaşlıq

***Siyasi sahədə əməkdaşlıq:***

Azərbaycan Xalq Cümhuriyyəti müstəqilliyini elan etdikdən sonra bağladığı ilk dövlətlərarası müqavilə Osmanlı imperiyası ilə 4 iyun tarixində imzalanmış Batum müqaviləsi olmuşdur. Müqavilə ilə hər iki tərəf siyasi, hüquqi, iqtisadi, intellektual sahədə qarşılıqlı dostluq münasibətləri quracaqları barədə razılığa gəldilər. 4 iyun müqaviləsinə əlavə olaraq, 2 saziş imzalandı. I saziş Azərbaycan, Gürcüstan, Osmanlı arasında Bakı-Batum kəmərinin təhlükəsizliyi barədə, II saziş isə Azərbaycan, Gürcustan, Osmanlı, Ermənistan arasında Çar Rusiyasından qalan dəmir yollarının bölüşdürülməsi barədə idi.

AXC ilə Osmanlı arasında İstanbulda keçirilməsi nəzərdə tutulan konfrans baş tutmasa da, Azərbaycan nümayəndə heyəti İstanbulda Osmanlı və digər dövlətlərin nümayəndələri ilə danışıqlar apardı və bu da o dövrdə münasibətlərinə müsbət təsir göstərdi. Yeni yaranmış AXC-in beynəlxalq münasibətlərin iştirakçısına çevrilməsi çətin proses olduğundan Osmanlı vasitəsi ilə Avropa dövlətləri ilə əlaqələrin qurulması ən yaxşı variant idi. [7]

Osmanlı üçün Rus imperiyasının parçalanması ilə qonşuluğunda türk dövlətinin yaranması müsbət hal oldu. Lakin AXC müstəqilliyi cəmi 23 ay qoruya bildi və SSRI-nin tərkibinə qatıldı. SSRI dövründə isə Azərbaycan-Türkiyə əlaqələri zəiflədi. SSRI iki xalq arasındakı əlaqələri özünə qarşı təhdid kimi qiymətləndirib, mane olmağa çalışırdı.

Azərbaycanın müstəqilliyini itirib SSRİ tərkibinə daxil edilməsinə Türkiyənin münasibəti yaxşı deyildi. Belə ki, Türkiyə Azərbaycanın müstəqil dövlətolmasını istəyirdi. Bolşeviklərin Azərbaycanda hakimiyyəti ələ keçirməsinə türklərin münasibəti belə idi: "Ümumiyyətlə, sovet Rusiyası indi Azərbaycan üçün tərbiyəçi və

müəllim deyil, qarətçidir. Azərbaycan milli dirçəlişə möhtacdır. Azərbaycandakı bolşevik hökuməti yadelli hakimiyyətdir". [26, s.48]

Mustafa Kamal Atatürkün Şərq cəbhəsinin komandanı Kazım Qarabəkir paşaya göndərdiyi 472 saylı teleqramda Azərbaycan haqqında yazırdı: " Azərbaycan tamamilə və qətiyyətlə müstəqil bir dövlət olmasına tərəfdarıq və bunun üçün ruslarla yaxşı münasibət saxlamaq və onları şüpələndirməmək şərti ilə lazımi addımlar atılacaqdır. Bu xüsusda məmləkətin neft və s. kimi iqtisadi mənbələrinə özünün sahib olması şərti ilə yenə eyni cür çalışılacaqdır. Rusların Azərbaycanda etdikləri hərəkətlərin bütün islam aləminin bolşevikləri yoxlamaları üçün meyar olacağını ruslara başa salmağa çalışılacaqdır". [26 s.48]

16 mart 1921-ci ildə Rusiya ilə Türkiyə arasında müqavilə imzalamaq üçün Moskvaya gedən türklər Azərbaycan, Gürcüstan və Ermənistan ilə ayrı ayrı müstəqil dövlətlər olaraq müqavilə imzalamaq istədilər. [26 s.49]

1921-ci ilin oktyabrında imzalanan Qars müqaviləsinin imzalanması prosesində də Türkiyə nümayəndə heyəti vahid bir müqavilə deyil, hər bir respublika ilə ayrı müqavilə bağlamaq istəyirdi. Bu barədə Mustafa paşanın göstərişi var idi. Lakin bu qədər təkid nəticə verməmiş vahid müqavilə imzalanmışdı. [26 s.49]

Azərbaycanda bolşeviklərin iqtidarı ələ keçirməsindən sonra 1921-ci ilin sonralarında Azərbaycan Ankarada səlahiyyətli nümayəndəliyi və Qarsda konsulluğu fəaliyyətə başlamışdır.[49, s.317]

21 sentyabrda Batumidən yola çıxan İbrahim Əbilov və nümayəndə heyəti 23 sentyabrda Trabzona, 24senytabrda isə Samsuna çatdı və burada qarşılanma mərasimi təşkil edilmişdi. 11 oktyabrda Ankaraya gedən Əbilov 22 oktyabr 1921-ci ildə etimadnaməsini Mustafa Kamal Atatürkə təqdim etdi. [ 49, s.319]

Nümayəndəlik Rusiya Sovet Sosialist Respublikası (RSFSR) tərəfindən idarə olunsa da, Azərbaycan ilə Türkiyə əlaqələri baxımından əhəmiyyətə malik idi. Səlahiyyətli nümayəndə İbrahim Əbilov və konsul İslam Hacıbəyli Ankara hökuməti

ilə münasibətlərin qurulmasında rol oynayırdılar. Nümayəndəliyin əsas vəzifələri Türkiyənin siyasi, iqtisadi və sosial vəziyyəti haqqında Xarici İşlər Komissarlığına davamlı olaraq məlumat vermək idi. Qafqazdan Türkiyəyə gələn siyasi mühacirlər haqqında məlumat vermək, mühacir təşkilatlarının ləğv edilməsi nümayəndəliyin qarşısında duran əsas vəzifələrdən idi. SSRİ mühacir təşkilatlarını özünə təhdid olaraq görürdü. Qısa fəaliyyət dövründə Azərbaycan SSR-ın Türkiyədəki nümayəndələri iki ölkə arasında münasibətlərin inkişafında vacib işlər görməyi bacarmışdı. Lakin məhdud səlahiyyətlərə sahib olmasına baxmayaraq, nümayəndəliyin mövcudluğu və fəaliyyəti Moskvanın xarici siyasəti ilə uyğunlaşmırdı. [49, s.317]

8 dekabr 1921-ci ildə isə qəbul edilən qərara əsasən Xaricdəki Sovet respublikalarinin səlahiyyətli nümayəndələri RSFSR-nın səlahiyyətli nümayəndəliyiyinə bağlı olmalı idi. Əgər qərarların qəbul edilməsində nümayəndələr arasında fikir ayrılığı olarsa, bu zaman RSFSR nümayəndəsinin qərarı tətbiq edilməli idi. İbrahim Əbilov isə bu qərarın lazımsız olduğunu düşünürdü. Moskvanın addım-addım tətbiq etdiyi mərkəzləşmə siyasəti nəticəsində Ankaradakı Azərbaycan təmsilçiliyinin fəaliyyəti getdikcə zəifləyirdi. 1922-ci ilin may ayında Azərbaycan SSR Xarici İşlər komissarlığı fəaliyyətini dayandırdı. 13 iyun 1922-ci ildə Cənubi Qafqaz Respublikalarının xarici işlərini birləşdirmək haqqında Transqafqaziya Birliyi Şurası tərəfindən qərar qəbul edildi. Qərara əsasən, Cənubi Qafqaz Respublikalarının xarici işlərinin ümumi idarəsi Transqafqaz SFSR Şurası tərəfindən icra ediləcəkdi. 5 avqust 1922-ci ildə Ermənistan və Gürcüstanın Ankaradakı səlahiyyətli nümayəndəliyinin fəaliyyətini dayandırması qərarı verildi. 25 sentyabrda İbrahim Əbilova verilən etimadnamə ilə Azərbaycan ilə bərabər Gürcüstan və Ermənistanı da Türkiyədə təmsil etmə səlahiyyəti verildi. [49, s.324] 1922-ci ilin noyabr ayında Qarsdakı konsulluq fəaliyyətini dayandırdı. 23 fevral 1923-cü ildə İbrahim Əbilov vəfat etdi və onun ölümündən sonra başqa bir nümayəndə təyin edilmədi, nümayəndəlik fəaliyyətini dayandırdı. Yeni qurulan SSRİ səlahiyyətli nümayəndəliyinə bütün Sovet respublikalarını təmsil etməsi vəzifəsi verildi. [49, s.325]

1990-cı illərdə SSRİ-nin dağılması ərəfəsində Azərbaycan-Türkiyə münasibətlərində yaxınlaşma baş vermişdir. 5-10 yanvar 1990-cı il tarixində Azərbaycan SSR Baş Naziri Türkiyəyə rəsmi səfər etmişdir. Bu səfər 70 ildən sonra Azərbaycan ilə Türkiyə arasında Baş Nazirlər səviyyəsində keçirilən ilk səfər olduğundan əhəmiyyətli idi. Türkiyə bu səfərə xüsusi önəm verirdi. Səfər zamanı ikitərəfli münasibətlərin inkişafı baxımından vacib olan protokollar imzalanmışdı:

- İqtisadi və Kommersiya Münasibətlərinin İnkişafına dair Protokol
- Sərhəd ticarəti haqqında protokol
- 1990-1992 Mədəni və Elmi Mübadilə Proqramı
- Mədəni və Elm Mübadiləsi haqqında Müqavilənin tətbiqi haqqında Saziş [53]

Dövrün prezidenti olan Turqut Özal Moskva ilə "Dostluq, yaxşı qonşuluq və əməkdaşlıq müqaviləsi" imzaladıqdan sonra 15 mart 1991-ci ildə Azərbaycana səfər etmiş, bunun ardından o dövrdə prezident olan Ayaz Mütəllibov Türkiyəyə rəsmi dəvət almışdır. 23-24 yanvar 1992-ci ildə Türkiyədə rəsmi səfərdə olan Mütəllibov iki ölkə arasında hərbi sahə istisna olmaqla ikitərəfli münasibətlərin inkişafına dair 11 maddəlik "Dostluq və əməkdaşlıq müqaviləsi" imzalamışdır. Lakin bu müqavilə Azərbaycan Parlamenti tərəfindən təsdiqlənməmiş, səbəbi olaraq isə Azərbaycanda baş verən daxili hərəkətlənmə və Rusiyanın diqqətini çəkmək istəməmələri göstərilmişdi. [41, s.20]

Azərbaycanın 18 oktyabr 1991-ci ildə müstəqilliyini bərpa etməsini 9 noyabr 1991-ci ildə yenə də ilk tanıyan dövlət Türkiyə olmuşdur. 14 yanvar 1992-ci ildə Azərbaycan ilə Türkiyə arasında siyasi münasibətlər yenidən başlamışdır. 24 yanvar 1992-ci ildə iki ölkə arasında dostluq, əməkdaşlıq və mehriban qonşuluq müqaviləsi imzalanmışdır. 1992-ci ilin avqust ayında Türkiyədəki Azərbaycan səfirliyi, Baş konsulluğu isə 1993-cü ildə İstanbulda, 2004-cü ildə Qarsda fəaliyyətə başlamışdır. [67]

İki ölkə ikitərəfli münasibətlərlə yanaşı, regional və beynəlxalq təşkilatlar çərçivəsində də yüksək səviyyədə əməkdaşlıq edir. Türkdilli Dövlətlər Birliyi, İslam

Əməkdaşlıq Təşkilatı, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Avropa Şurası, ATƏT, BMT kimi bir sıra təşkilatlarda iki ölkə qarşılıqlı fayda və mənafelərin müdafiəsində siyasi əməkdaşlıqlarını yüksələn inkişaf dinamikası ilə həyata keçirirlər.

***İqtisadi sahədə əməkdaşlıq:***

İqtisadi münasibətlərin hüquqi əsasları baxımından ən mühüm sənədlərindən biri 1 noyabr 1992-ci il tarixli "Türkiyə Respublikası və Azərbaycan Respublikası Hökuməti arasında Ticarət-İqtisadi Əməkdaşlıq haqqında Saziş" olmuşdur. Sazişə əsasən, tərəflər qanunvericiliyə uyğun olaraq, mövcud imkanlar çərçivəsində, iqtisadi əməkdaşlığın uzunmüddətli, sabit və balanslaşdırılmış inkişafı üçün lazımi tədbirlər gördülər. II maddəsində göstərilir ki, tərəflərin öz ölkələrində idxal və ixraca tətbiq edilən gömrük vergisi, rüsum, xərclər və digər əməliyyatlar qarşılıqlı sürətdə ən əlverişli rejim yaradılması əsasında həyata keçiriləcəkdir.

Tərəflər bu sazişin tətbiq və icra edilməsindən meydana çıxan problemləri araşdırmaq, iki tərəfli iqtisadi-ticarət münasibətlərini daha da inkişaf etdirmək məqsədi ilə Azərbaycan – Türkiyə Müştərək İqtisadi Komissiyasının təşkil edilməsini qərara almışdır. [55]

8-10 fevral 1994-cü il tarixində Azərbaycan Prezidenti Heydər Əliyevin Türkiyəyə səfəri zamanı ikitərəfli iqtisadi əlaqələr baxımından mühüm sənədlər imzalanmışdı.

9 fevral tarixində 10 il müddətinə imzalanan "Türkiyə Respublikası ilə Azərbaycan Respublikası arasında dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə müqavilə"-nin XI XII XIII XIV maddələri iqtisadi əməkdaşlıqla bağlı idi. Müqavilədə göstərilir ki, tərəflər ticarət və iqtisadi əməkdaşlığın ikitərəfli münasibətlərin mühüm bir hissəsini təşkil etdiyini nəzərə alaraq, aralarında ticarət həcminin ölkələrinin mövcud potensiallarına uyğun səviyyəyə yüksəldilməsinə, ortaq kapital qoyuluşu layihələrinin inkişafına və tətbiqinə zəmin yaradacaq, ticarət-iqtisadi və maliyyə sahələrində əməkdaşlığı ən əlverişli şərait yaradacaqları prinsipi əsasında həyata keçirəcək, ölkələrin iqtisadiyyatının inkişafına xidmət edən investisiya qoyuluşlarının

həyata keçirilməsinə şərait yaradacaq və texnologiya mübadiləsini inkişaf etdirəcək, sərbəst bazar iqtisadiyyatının sağlam tərzdə inkişafına imkan yaradacaq iqtisadi islahatların keçirilməsi, iqtisadiyyatın idarə olunması, ayrıca texniki proqramların həyata keçirilməsi, lazımi kadrların hazırlanması və təhsili sahəsində bilik və təcrübə mübadiləsini artıracaq, bununla əlaqədar lazımı təhsil programlarının hazırlayacaq, özlərinin dəniz, çay və hava limanları, dəmiryolu və avtomobil yolları, neft və təbii qaz boru kəmərləri ilə yük və sərnişin daşınmasını təmin edəcək daha əlverişli rejim yaratmaq məqsədi ilə, öz ərazilərini tranzit daşınması məsələsinə aid əvvəlki sazişləri təsdiq edərək, lazımi əlavələr etməklə ayrı-ayrı sazişlər imzalayacaqlar. [56]

İkitərəfli iqtisadi əlaqələr baxımından mühüm qurum olan Türkiyə ilə Azərbaycan arasında İqtisadi və Ticari Əlaqələr üzrə Müştərək İqtisadi Komissiyanın ilk iclası 1997-ci il fevralın 25-də keçirilmişdir. Müxtəlif səbəblərdən Müştərək İqtisadi Komissiyanın ikinci iclası uzun müddət keçirilə bilmədi. 2001-ci il martın 29-da keçirilən ikinci iclasda qarşılıqlı ittihamlarla dolu gərgin atmosfer hökm sürür və bu dövrdə ikitərəfli iqtisadi münasibətlərdə müsbət atmosferdən danışmaq çətin idi. Çünki bu illərdə iranlı və rusiyalı həmkarları ilə müqayisədə türk sərmayəçilərinin və türk yük maşınlarının neqativ şərtlərlə təmin olunmasıyla bağlı kəskin tənqidlər səslənirdi. 2001-ci il sentyabrın 17-də Bakıda səfərdə olan Türkiyə Prezidenti Əhməd Necdet Sezerin Azərbaycan Prezidenti Heydər Əliyevlə yüksək səviyyəli görüşü zamanı məsələnin mətbuat qarşısında dilə gətirilməsi hətta iki ölkə arasında qısamüddətli gərginliyə səbəb olmuşdu. 2002-ci il oktyabrın 13-də İqtisadi Əməkdaşlıq Təşkilatının iclasında iştirak etmək üçün İstanbula gedən Heydər Əliyev oktyabrın 15-də türkiyəli iş adamları ilə görüşüb. Görüş zamanı onları Bakıya dəvət edən Əliyev problemləri həll edəcəyini bildirib. Bundan sonra 2002-ci il noyabrın 11-də Heydər Əliyev Prezident sarayında Türkiyədən gəlmiş mühüm iş adamları ilə görüşüb. Görüşdə iş adamlarının Azərbaycanla bağlı fikirləri dinlənilib, onların investisiya yatırmaq istədikləri sahələr dəyərləndirilib. Amma sonrakı dövrdə bu iş adamları Azərbaycana investisiya qoymadı. Müştərək İqtisadi Komissiyanın üçüncü iclası 12-14 aprel 2005-ci ildə Türkiyədə keçirilmişdir. Aprelin 13-də imzalanmış "Uzunmüddətli iqtisadi və

ticari əməkdaşlıq haqqında Saziş"ə uyğun olaraq hazırlanması qərara alınan İcra Planının ən qısa zamanda tamamlanaraq qüvvəyə minməsi razılaşdırılıb. Türkiyə-Azərbaycan Birgə İqtisadi Komissiyasının dördüncü iclası 2006-cı il iyulun 27-28-də Bakıda, beşinci iclası isə 11 aprel 2008-ci ildə İstanbulda keçirilmişdir. Bu görüşlərdə əməkdaşlığın mühüm aspektləri, eləcə də problemlər vurğulanmış, yaxın gələcəkdə hansı addımların atılmalı olduğu hər iki tərəfdən aydın şəkildə ifadə edilmişdir. Altıncı iclas 3 ildən sonra 2011-ci il yanvarın 22-də Bakıda keçirmişdir. İclasda imzalanan protokolda "Strateji əməkdaşlıq haqqında Saziş" olan Birgə Enerji Komissiyasının yaradılması zəruriliyi də qeyd olunub. Eyni zamanda, Türkiyənin İxracın İnkişafı Mərkəzi ilə Azərbaycanın İqtisadi İnkişaf Nazirliyi yanında İxracın və İnvestisiyaların Təşviqi Fondu arasında əməkdaşlığın inkişaf etdirilməsi üzrə sazişin imzalanması nəzərdə tutulmuşdur. 10-11 iyul 2014-cü il tarixlərində Ankarada Türkiyə-Azərbaycan Müştərək İqtisadi Komissiyasının VII iclası keçirilmişdir. [40, s. 17-20]

Türkiyə Prezidenti Abdullah Gülün Azərbaycana səfəri zamanı 2007-ci il noyabrın 6-da iki ölkə arasında "Uzunmüddətli iqtisadi əməkdaşlıq proqramı" və İcra planı imzalandı. Məqsəd ticarət, sənaye, kənd təsərrüfatı, energetika, dağ-mədən, nəqliyyat, rabitə, maliyyə, bank işi, tikinti xidmətləri, turizm və digər iqtisadi sahələr üzrə əməkdaşlığı inkişaf etdirmək, iqtisadi münasibətlərdə problemli sahələri mümkün qədər azaltmaq və maneələrin aradan qaldırılmasını təmin etmək, ümumi inkişaf perspektivlərini gücləndirmək idi. [31]

Bu illərdə Türkiyə-Ermənistan arasında sərhədlərin açılması və diplomatik münasibətlərin inkişafı haqqında protokollar nəticəsində Azərbaycan-Türkiyə münasibətlərindəki qısa müddətli gərginlik iqtisadi münasibətlərin zəifləməsinə səbəb oldu. Lakin 2008-2010-cu illərdəki bu gərginlik aradan qaldırıldı və münasibətlər normallaşdı.

Türkiyə Prezidenti Abdullah Gülün 16-17 avqust 2010-cu il tarixlərində Azərbaycana səfəri zamanı "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası

arasında Strateji Tərəfdaşlıq və Qarşılıqlı Yardım Sazişi" imzalanmışdır. Sazişin X, XI, XII və XIII maddələrində iqtisadi məsələlər öz əksini tapmışdır. [5]

2010-cu il sentyabrın 15-16-da İstanbulda keçirilən Türkdilli Ölkələrin Dövlət Başçılarının onuncu Zirvə Görüşü zamanı Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan və Azərbaycan Prezidenti İlham Əliyev arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının yaradılması haqqında saziş imzalanmışdır. 2011-ci il oktyabrın 25-də hər iki ölkənin liderləri və Müdafiə nazirlərinin iştirakı ilə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının ilk iclası keçirilmişdir. Bu görüşdə bir çox mühüm qərarlar qəbul edilmişdi, onlardan biri də "Türkiyə Respublikası Hökuməti ilə Azərbaycan Respublikası Hökuməti arasında Türkiyə Respublikasına təbii qazın satışına və Azərbaycan Respublikasınının təbii qazının Türkiyə Respublikası ərazisindən tranzit keçidinə və təbii qazın Türkiyə Respublikası ərazisindən nəqli üçün eksklüziv boru kəmərinin inkişafı haqqında Saziş" idi. [40, s. 21]

25 fevral 2020-ci ildə Bakıda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının iclası keçirilib. Şuranın son iclası 25 fevral 2020-ci ildə Bakıda keçirilən VIII iclas olmuşdur. [11]

İki ölkə arasında iqtisadi əlaqələrin ən mühüm istiqamətlərindən biri də enerji sahəsində əməkdaşlıqdır. Türkiyə-Azərbaycan enerji əlaqələrinin əsası Azərbaycanın müstəqillik qazanması ilə qoyulub.

Azərbaycanın enerji strategiyasının dinamikası və əsas prinsipləri 1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi" adlı sənəddə öz əksini tapıb. Bu müqavilə Azərbaycan tarixində müstəqillik əldə etdikdən sonra mühüm yer tutmaqla yanaşı, həm də yeni enerji strategiyasına doğru ilk addımdır. Müqavilənin ən mühüm nəticəsi Azərbaycan neftinin dünya bazarında tanınması oldu. Xəzər dənizinin dərinliklərində yerləşən "Azəri", "Çıraq" və "Günəşli" yataqlarından neftin hasilatı və pay bölgüsü haqqında imzalanmış sazişdə dünyanın 7 ölkəsinin 11 şirkəti iştirak etdi. Bu müqavilədə Türkiyənin "Türkiyə petrolları" şirkəti də iştirak edirdi. [29]

Türkiyə ilə Azərbaycan arasında enerji əlaqələrində mühüm layihələr: Bakı-Tbilisi-Ceyhan Neft Boru Kəməri (BTC) və Bakı-Tbilisi-Ərzurum (BTE) Təbii Qaz Boru Kəməridir. [57]

BTC Azərbaycanın enerji siyasəti ilə bağlı ən uğurlu layihəsi idi. BTC boru kəmərinin yaradılmasında əsas məqsəd Bakı neftinin Avropa bazarına çıxarılması idi. 1999-cu ildə İstanbulda keçirilən Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) iclası çərçivəsində ABŞ, Türkiyə, Azərbaycan, Gürcüstan və Qazaxıstan prezidentləri arasında BTC neft kəmərinin tikintisi ilə bağlı beynəlxalq müqavilə və layihəni dəstəkləyən İstanbul Bəyannaməsi imzalandı. Kəmərin ümumi uzunluğu 1767 km idi. 443 km Azərbaycan, 248 km Gürcüstan, 1076 km isə Türkiyə ərazisindən keçir. BTC boru kəməri layihəsi hər üç dövlət üçün gəlirli layihədir. BTC kimi beynəlxalq kəmərin Türkiyə ərazisindən keçməsi Türkiyənin geosiyasi əhəmiyyətini daha da artırır. BTC layihəsi sayəsində Türkiyənin Azərbaycan və Gürcüstanla enerji sahəsində əməkdaşlığı daha da inkişaf edib. [57]

Təbii qazla da zəngin olan Azərbaycan ilə Türkiyə arasında BTC-dən sonra Bakı-Tbilisi-Ərzurum layihəsi ön plana çıxdı. 2001-ci il martın 12-də qaz ixracına dair danışıqların nəticəsi olaraq Azərbaycan və Türkiyə - hər iki hökumət, BOTAŞ və Azərbaycan neft şirkəti SOCAR arasında 6,6 milyard $m^3$ təbii qaz idxalına dair saziş imzaladı. 2005-2007-ci illərdə inşa edilən Bakı-Tbilisi-Ərzurum Təbii Qaz Kəməri 3 iyul 2007-ci ildə fəaliyyətə başlamışdır və “Şahdəniz” yatağından hasil olunan təbii qazı Gürcüstan vasitəsilə birbaşa Türkiyəyə daşınır. [57]

Bu iki uğurlu layihədən sonra Trans Anadolu Təbii Qaz Boru Kəməri Layihəsi (TANAP) layihəsi gündəmə gəldi. Azərbaycan və Türkiyə arasında 2011-ci il oktyabrın 25-də imzalanmış ən əhəmiyyətli enerji layihələrindən biri TANAP-dır. 26 dekabr 2011-ci ildə Ankarada Azərbaycan və Türkiyənin Energetika nazirlikləri arasında TANAP üzrə birgə bəyannamə imzalandı. Bəyannamə imzalandıqdan sonra TANAP-ın tikintisinə hazırlıq işlərinə başlanılması qərara alındı. 2012-ci il iyunun 26-

da Dolmabaxça sarayında TANAP-la bağlı yüksək səviyyəli rəsmi sənədlər imzalandı. [57]

TANAP Bakıdan başlayaraq İtaliyaya qədər 3500 kilometrlik Cənub Qaz Dəhlizinin ən mühüm hissəsidir. Şahdəniz 2 yatağında istehsal olunan təbii qazın TANAP vasitəsilə Türkiyə və Avropaya daşınması nəzərdə tutulur. Gürcüstan sərhədindən Türkiyəyə daxil olan TANAP Türkiyə ərazilərindən keçərək Türkiyə-Yunanıstan sərhədində Trans Adriatik Təbii Qaz Boru Kəmərinə (TAP) birləşir. Türkiyə qaz ehtiyatlarını şaxələndirməyə və ucuz qiymətə qaz idxal etməyə çalışır. Tanap layihəsi bu kontekstdə atılan əsas addımlardan biridir. TANAP Türkiyənin enerji baxımından Rusiya və İrandan asılılığını azaldır. Türkiyə Azərbaycan təbii qazının Avropaya nəqlində son dərəcə mühüm mövqedə yerləşir. Türkiyənin həm sənaye sektorunda, həm də məişət istifadəsində yüksək miqdarda enerji istehlak olunur və bu istehlak miqdarı günü-gündən artır. [57]

Enerji sektorunda İnvestisiyaların artması Türkiyənin xarici asılılığının azalması ilə nəticələnəcəkdir. Tarixdən gələn ortaq fayda və dostluq çərçivəsində Türkiyə və Azərbaycan dövlətləri enerji sahəsində iki uğurlu tərəfdaşdır. Bu günə qədər həyata keçirilən birgə layihələrin uğurla başa çatması hər iki ölkə üçün enerji sahəsində əməkdaşlığa yaxşı nəticə göstərdi. [57]

## 2.2 Hərbi və digər sahələrdə əməkdaşlıq

***Hərbi sahədə əməkdaşlıq:***

1991-ci ildə müstəqilliyin bərpasından sonra dövlət qurumlarının yaradılması və inkişaf etdirilməsi prioritet hesab olunurdu. Ən önəmli qurumlardan biri Silahlı Qüvvələr idi. 1921-1991-ci illərdə Azərbaycan SSRİ-nin tərkibində olan zaman ordusu olmayıb. Müstəqilliyin ilk illərində isə nizami ordu qurmaq imkanı olmadan Azərbaycan erməni işğallarına məruz qalmışdı. Ərazi iddiaları olan və işğalçılıq siyasəti yürüdən Ermənistana qarşı mübarizədə vətənini işğalçılardan qorumağa

çalışan könüllülərdən ibarət dəstələr iştirak edirdi. Lakin onları idarə edəcək vahid komandanlıq və könüllülərin hərbi təcrübəsi olmadığından mübarizə aparmaqda çətinlik çəkirdilər. Silahlı qüvvələrin yaradılması, könüllülərə təlimlərin keçirilməsi, silahlarla təmin olunması və nizami ordu yaratmaq vacib idi. Bu prosesde Azərbaycanın yanında olacaq və yardım edəcək dövlət Türkiyə oldu. İlk növbədə Xüsusi Maşın və Transformasiya Komitəsinin inkişafı üçün Türkiyə Maşın və Sənayə Müəssisəsi ilə əməkdaşlığa başlandı. 3 may 1992-ci ildə Azərbaycan höküməti və Türkiyə hökümətі arasında imzalanan "Türkiyə və Azərbaycan arasında imzalanan təhsil, tədris, mütəxəssiz xidmətləri, texniki və elmi əməkdaşlıq müqaviləsinin" davamı olaraq Ankarada 12 avqust 1992-ci ildə iki ölkə arasında hərbi əməkdaşlığın əsasını qoyan "Hərbi təhsil sahəsində əməkdaşlıq haqqında" müqavilə imzalandı. [2]

Təcrübəli hərbi heyət Türkiyədən Azərbaycana hərbi təlimlər keçmək məqsədi ilə gəldi. Bununlada Türkiyə Respublikası Azərbaycan Silahlı Qüvvələrinin formalaşması prosesinə öz töhvəsini verməyə başladı. Silahlı Qüvvələrin formalaşması prosesində minlərlə Azərbaycan zabiti Türkiyə Silahlı Qüvvələrinin təlim mərkəzində, hərbi akademiyasında təhsil aldı.

10 iyun 1996-cı ildə Ankarada "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında hərbi təlim, texniki və elmi sahədə əməkdaşlıq haqqında Saziş" imzalanmışdı. Yaxın münasibətlərin olmasına baxmayaraq, iki ölkə arasında geniş hərbi əməkdaşlığı nəzərdə tutan hərbi siyasi saziş imzalanmamışdı. Hərbi əlaqələr Azərbaycan zabitlərinin Türkiyə hərbi məktəblərində təhsil almasını və Kosovada sülh əməliyyatlarında xidmət edəcək Azərbaycan hərbi batalyonunun maliyyələşdirilməsi ilə kifayətlənmişdir. [44]

16 avqust 2010-cu ildə Bakıda Azərbaycan ilə Türkiyə arasında imzalanmış "Strateji Tərəfdaşlıq və Qarşılıqlı Yardım Sazişi" bu ölkələrdən hər hansı birinin ərazi bütövlüyünə təhdid olarsa, əməkdaşlıq etmələrini zəmin yaradırdı. [5]

Müqavilənin ikinci maddəsinə əsasən, "Tərəflərdən biri üçüncü dövlət və ya bir qrup dövlət tərəfindən silahlı basqın və ya hərbi təcavüzə məruz qaldıqda, Tərəflər

BMT Nizamnaməsinin 51-ci maddəsi ilə tanınan fərdi və ya kollektiv özünü müdafiə hüququnun həyata keçirilməsi üçün hərbi imkan və qüdrətlərindən istifadə etmək də daxil olmaqla, mövcud imkanları çərçivəsində bütün zəruri tədbirlərin görülməsi məqsədi ilə bir-birinə qarşılıqlı yardım göstərəcəkləri barədə razılığa gəldilər. Bu yardımın forması və həcmi təxirəsalınmadan Tərəflər arasında razılaşdırılacaqdır.” [5]

Müqavilənin I, II, III, IV, V, VI maddələrində “Hərbi-siyasi və təhlükəsizlik məsələləri”, VII, VIII, IX maddələrində isə “Hərbi və hərbi-texniki əməkdaşlıq məsələləri” öz əksini tapmışdı. [5]

Azərbaycan ilə Türkiyə arasında həm ikitərəfli, həm də NATO çərçivəsində münasibətlər inkişaf etmişdir. Azərbaycan ilə Türkiyə sülhməramlı əməliyyatlarda birgə iştirakı hərbi sahədə əməkdaşlığın xüsusi bir nümunəsi olmuşdur. 1999-cu ildə Kosovoda sülhün yaradılması və dəstəklənməsi üzrə keçirilən əməliyyatlarda Türkiyə taborunun IV mexanikləşdirilmiş piyada bölüyünün tərkibində iştirak etmişdir. [13]

Türkiyənin yardımı ilə Azərbaycan Ali Hərbi Məktəbi NATO standartlarına uyğunlaşdırılmışdır. 2001-ci ildə bu məktəbdən NATO standartlarına uyğun təhsil almış ilk tələbələrin məzun tədbirində Heydər Əliyev iştirak etmiş, iki ölkə arasında hərbi əlaqələrin inkişaf etməsindən məmnunluğunu bu sözlərlə ifadə etmişdir: “Azərbaycan ordusunun yaradılmasında, təlim və müasir standartlara uyğunlaşdırılmasında Türkiyə Silahlı qüvvələrinin rolu çox önəmli qiymətləndirir və bu istiqamətdə səylərin artırılmasının vacib olduğuna inanırıq”. [38, s.6]

Türkiyə NATO-nun imkanlarından Azərbaycanın ən yaxşı formada yararlanması üçün əlavə imkanlar yaradır. NATO-nun 2001-ci ildə Azərbaycanda keçirdiyi “Cooperative Determination 2001” təlimi zamanı Azərbaycanda olan NATO Cənub-Şərqi Avropa Birləşmiş Qüvvələrinin komandanı General Oktar Ataman bu cür təlimlərin əsas məqsədinin NATO və Sülh üçün əməkdaşlıq proqramına üzv ölkələrin orduları arasında birgə çalışma və əməkdaşlığı inkişaf etdirmək olduğunu vurğulayıb. Türkiyənin verdiyi hərbi yardım əsasən Azərbaycan Silahlı Qüvvələrinin NATO ilə

əməkdaşlıq imkanlarının artırılmasına, Azərbaycan əsgərlərinin Türkiyə və NATO-nun təlim mərkəzlərində xüsusi təlimlər keçməsinə yönəlmişdir. [38, s.7]

Hərbi təlimlər iki ölkənin Silahlı Qüvvələri arasında təcrübə paylaşımı etməyə istiqamətlənib. 2000-ci ildən etibarən Türkiyə, Azərbaycan, Gürcüstan arasında sülhün dəstəklənməsi və eyni zamanda boru kəmərlərinin qorunmasına istiqamətlənmiş "Sonsuzluq təlimi" adlı üçtərəfli təlim keçirilmişdir. [39]

İlk olaraq 12-28 iyul 2013-cü ildə Bakı və Naxçıvanda Türkiyə Azərbaycan arasında "TURAZ Qartalı" adlı hərbi təlimlərə başlanılmışdır. Təlimin davamı olaraq 2015, 2017, 2019-cu illərdə Azərbaycanda "TURAZ Qartalı" adlı, 2014, 2016, 2018-ci ildə isə Türkiyədə "TURAZ Şahini" adlı hərbi təlimlər keçirilmişdir. [39]

Quru və hava hərbi təlimlərində hər iki ölkənin əsgərləri, zirehli maşınları, artilleriya bölmələri, hərbi təyyarələri, hava müdafiə sistemləri iştirak etmişdir. "TURAZ Qartalı-2020" hərbi təlimi çərçivəsində Türkiyə F-16 təyyarələri Azərbaycana gətirilmişdir. F-16 ilə Azərbaycan hərbi təyyarələri birlikdə təlim uçuşları həyata keçirmişlər. Təlimlər Bakı, Naxçıvan, Gəncə, Kürdəmir və Yevlax ərazisində baş tutmuşdur. [63]

Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələri arasında "TURAZ Şahini-2021" taktiki-uçuş təlimləri 6-17 sentyabr tarixlərində Konya şəhərində baş tutmuşdur. 78 nəfərdən ibarət heyət ilə yanaşı Azərbaycana aid 2 ədəd Mig-29 ve 2 ədəd Su-25 təyyarələri təlim məqsədilə Türkiyəyə göndərilmişdir. [64]

"TURAZ Qartalı" və "TURAZ Şahini" kimi önəmli hərbi təlimlərdən sonra 1-3 may 2019-cu ildə daha bir əhəmiyyətli təlim olan "Mustafa Kamal Atatürk-2019" adlı hərbi təlim həyata keçirilmişdir. Təlim Bakı yaxınlığında 85-i türk olmaqla 1000 əsgər, 60 tank və zirehli maşın, 30 top və minaatan, 20 hücum və nəqliyyat helikopterin iştirakı ilə baş tutdu. [58]

Yenidən 28-30 iyun 2021-ci ildə "Mustafa Kamal Atatürk-2021" hərbi təlimi Bakıda keçirildi. Təlim döyüş əməliyyatları zamanı iki ölkə ordusunun qarşılıqlı

fəaliyyətinin, komandirlərin qərar qəbul etmə və idarəetmə bacarıqlarının təkmilləşdirilməsi məqsədi daşıyırdı. Təlimdə 600 əsgər, 40 tank və zitehli maşın, 20 top, 7 hərbi və personal helikopteri, 50 nəqliyyat vasitəsi iştirak etdi. [69]

Azərbaycan ordusunun rabitə və peyk sistemlərinin yenilənməsində Türkiyənin xüsusi rolu olub. Bu kontekstdə Türkiyənin müdafiə sənayesi şirkəti ASELSAN (Askeri Elektronik Sanayii) Azərbaycanın inkişaf etdirdiyi sursatların bir hissəsinin ağıllı olmasında və pilotsuz təyyarələrə qarşı anti-dronun inkişafında rol oynayıb.

Roketsan şirkəti 2010-cu ildə də Azərbaycana idarə olunan artilleriya raketləri və uzaqmənzilli raket sistemlərinin satışı ilə bağlı razılıq əldə edib.

Bu müqavilə çərçivəsində təhvil verilməsi planlaşdırılan uzaqmənzilli raket sistemləri və “Kaplan” raketi Azərbaycan Silahlı Qüvvələrinin inventarında görünür. Azərbaycan mətbuatında 2017-ci ildə Türkiyənin inventarına daxil olan 120 kilometr mənzilli 20 ədəd “Kaplan” ballistik raket buraxılış qurğusunun Azərbaycana ixrac edildiyi barədə məlumat yayılıb.

Bu müqavilədən sonra Azərbaycana çoxlüləli TR-300 “Kasırga” reaktiv yaylım atəşi sistemi və 122 mm-lik “Sakarya” artilleriya raketi də ixrac edilib. Sakarya üçün lazım olan texniki məhsulların Türkiyədən idxalı və birgə istehsala başlanması üçün də müqavilə imzalanıb.

2011-ci ildə Azərbaycan mətbuatında Roketsan şirkətinin Azərbaycana 244 milyon dollarlıq ixrac müqaviləsi imzaladığı yazılmışdı. Həmçinin bildirilib ki, “Otokar” “Kobra” zirehli texnikası və zirehli transportyorları üçün Azərbaycana 23 milyon dollar ixrac edib. [51]

Azərbaycan və Türkiyə minaların təmizlənməsi sahəsində də əməkdaşlıq edirlər. Türkiyə Milli Müdafiə Nazirliyinə bağlı olan ASFAT anonim şirkəti tərəfindən yerli və milli imkanlarla ilk mina təmizləmə avadanlığı istehsal olunur. Uzaqdan idarə olunan və insan itkisinin qarşısını almaq məqsədi ilə istehsal olunan “Mexaniki Mina Təmizləmə Təhcizatı (MEMATT)”-nın ilk idxalçısı Azərbaycan oldu. Bakı

yaxınlığında sınaqdan keçən MEMATT bütün minaları uğurla məhv etdi. Azərbaycan ilə Türkiyə arasında bağlanan müqaviləyə əsasən 20 qurğu alındı və bu qurğuların Azərbaycana gətirilməsi mərhələli şəkildə baş verəcəkdir. MEMATT-ın üstünlüyü daha az vaxt sərf etməklə təhlükəsiz şəkildə minaların təmizlənməsidir. MEMATT Azərbaycanın işğaldan azad etdiyi ərazilərdə Ermənistanın işğal dövründə yerləşdirdiyi minaların təmizlənməsində iştirak edəcək. [71]

Azərbaycanın hərbi sahədə islahatların keçirilməsində, hərbi sənayesinin inkişaf etməsində Türkiyənin xüsusi rolu mövcuddur. Bu əməkdaşlığın zamanla inkişaf edib, ən yüksək səviyyəyə çatdırılması hədəflənir. Türkiyə güclü hərbi potensiala və müdafiə sənayesi qabiliyyətinə malikdir. Türkiyə Qafqaz və Mərkəzi Asiyada nüfuzunu qorumaq və artırmaqda maraqlı olduğundan Azərbaycanı bu regiondakı təbii müttəfiqi olaraq görür və Azərbaycanın hərbi sahədə inkişafında maraqlıdır. Azərbaycan və Türkiyə hər bir sahədə olduğu kimi həm ikitərəfli, həm də NATO çərçivəsində hərbi əməkdaşlığı daima inkişaf etdirirlər.

***Təhsil sahəsində əməkdaşlıq:***

1905-ci ildən sonra Azərbaycan təhsil sahəsində Türkiyə ilə əməkdaşlığa meyl etmişdir və Türkiyədən müəllim gətirməyə çalışmışdır. Azərbaycana gələn ilk Osmanlı türk müəllim Əhməd Kamal bəy olmuşdur. O, Bakıda Balaxanı məktəbində işləmişdir. Hacı Zeynalabdın Tağıyev müəllim Mehmet Cevdetı və dostlarını Azərbaycana gətirmişdir. Onlar Osmanlı mədəniyyətinin Azərbaycanda düzgün təbliğinə, Azərbaycan təhsilinin inkişafına kömək etmişlər. 1907-ci ildə Azərbaycan müəllimlərinin II qurultayında "Usul-ü Cedid" təhsil verilməsi qərara alındı. 1907-ci ildə ilk mədrəsə "Medrese-i Saadet", 1908-ci ildə ikinci mədrəsə istifadəyə verildi. 1908-ci ildən Türkiyədən gələn müəllimlər təhsildə ciddi dəyişikliklərə başladı. 1917 və 1920-ci illərdə Osmanlı İmperiyasından Azərbaycana gələn müəllimlərin sayı 300-dən çox olmuşdur. [46, s.77]

1918-ci ildən müstəqillik əldə edən Azərbaycan Xalq Cümhuriyyəti süqutuna qədər olan 23 ay ərzində dövlət idarəçiliyinin demək olar ki, bütün sahələrində

milliləşdirmə siyasəti aparmışdır. Bu dövrdə təhsil milliləşdirilərək məktəblərdə “Türk dili” məcburi fənn kimi tədris olunmağa başlanmışdır. Nazirlər Sovetinin 27 iyun 1918-ci ildə qəbul etdiyi qərarla “Türk dili” Azərbaycan dövlətinin rəsmi dili olaraq qəbul edilmişdir. Bu dövrdə Azərbaycan-Türkiyə təhsil sahəsində olan əməkdaşlığa nəzər yetirdikdə görünür ki, Azərbaycan Parlamenti Türkiyədən kitabların gətirilməsi üçün Maarif Nazirliyinə müəyyən bir məbləğ ayırmışdı. Azərbaycan Maarif Nazirliyinin başçılıq etdiyi nümayəndə heyəti Azərbaycan məktəblərində işləməsi üçün Osmanlıdan 50 müəllim göndərməsini istəmişdir. [43]

Türk dilini tədris dili kimi təyin etməyə çalışan Müstəqil Azərbaycan hökuməti bir müddət sonra müstəqilliyini itirmiş və Sovet İttifaqının tərkibinə daxil olmuşdur, Osmanlı İmperiyası isə müharibənin məğlubiyyəti ilə parçalanmışdır. Beləliklə əməkdaşlıq nəticə verə bilməmişdir. [43]

1991-ci ildə Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra Türkiyə ilə bir çox sahələrdə əməkdaşlıq etmişdir, bunlardan biri də təhsil sahəsidir. Bu əlaqələrin təməlini və hüquqi əsasını 3 may 1992-ci ildə Türkiyə Respublikası və Azərbaycan Respublikası arasında "Təhsil, Təlim, Ekspertiza Xidmətləri, Texniki və Elmi Əməkdaşlıq Sazişi" qoymuşdur. Müqavilənin qüvvəyə minməsi ilə Azərbaycan və Türkiyə arasında təhsil sahəsində sürətli fəaliyyət prosesi başlamışdır. Sazişin məqsədi tərəflər arasında təhsil, təlim, ekspert xidmətləri, texniki və elm sahələrində əməkdaşlığın təsis edilməsi və həyata keçirilməsidir. Bu razılaşma ilə protokolun maddələrində qeyd olunan müxtəlif səviyyələrdə təhsil qurumları arasında qarşılıqlı səfərlər, birgə əməkdaşlıq layihələri, elmi görüşlər, tələbə mübadiləsi kimi fəaliyyətlər davam etdirilir. [65, s.102]

Təhsillə bağlı daha bir saziş 20 iyul 2005-ci il tarixdə Bakı şəhərində imzalanmış “Türkiyə Respublikası Hökuməti və Azərbaycan Respublikası Hökuməti arasında kartoqrafiya sahəsində təhsil, texniki və elmi əməkdaşlıq haqqında Saziş”dir. Məqsədi tərəflər arasında, öz milli qanunvericilikləri ilə tənzimlənən səlahiyyətlər çərçivəsində, qarşılıqlı maraq və mənfəət əsasında kartoqrafiya sahəsində təhsil, texniki və elmi

əməkdaşlıq qurmaq və həyata keçirmək olan sazişdə 3 may 1992-ci il "Təhsil, Təlim, Ekspertiza Xidmətləri, Texniki və Elmi Əməkdaşlıq Sazişi" müddəalarına əməl ediləcəyini bildirilir. [65, s.103]

31 oktyabr 2017-ci ildə Bakıda "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş" imzalandı. Bu anlaşma memorandumu ilə iki ölkə arasında ali təhsil səviyyəsində əməkdaşlığın qurulması üçün institusional bazanın yaradılması və hər iki ölkənin ali təhsil müəssisələri arasında akademik və elmi sahələrdə mövcud əməkdaşlığın artırılması məqsədi daşıyır. Anlaşma Memorandumuna ali təhsil proqramlarına tələbə qəbulu, diplomların qarşılıqlı tanınması, hər iki ölkənin ali təhsil müəssisələri arasında tələbələrin və akademik heyətin mübadilə proqramlarında iştirakının artırılması daxildir. [65, s.104]

***Mədəni sahədə əməkdaşlıq:***

Mədəni yaxınlıq cəmiyyətlər və dövlətlər arasında münasibətlərə təsir edən və onları formalaşdıran önəmli faktordur. Bu cür yaxınlıq ölkələrin bir birinə güvənməsinə, əməkdaşlıqların inkişaf etməsinə təsir göstərir. Azərbaycan Türkiyə münasibətlərində də bunları görmək olur. Azərbaycan və Türkiyə zəngin mədəniyyətə malikdir. Xalqların mənəvi-mədəni yaradıcılığında oxşarlıq və ortaq dəyərlər görmək mümkündür. Bu ölkələrin insanlarının dil, din, adət-ənənələr, psixologiya, davranış qaydalarının bir-birinə oxşarlığı, şübhəsiz ki, tarixin gedişində onların maddi və mənəvi mədəniyyətlərə, qarşılıqlı əlaqəsinə, zənginləşməsi və inkişafına güclü təsir göstərmişdir. Türkiyə və Azərbaycan arasında sosial və mədəni əlaqələrin inkişafı üçün hər iki ölkənin Mədəniyyət Nazirliyi, Təhsil Nazirliyi, Xarici İşlər Nazirliyi səy göstərir. Həmçinin iki ölkə müxtəlif təşkilatlar, qurumlar çərçivəsində əməkdaşlıq edirlər. Bu təşkilatlara Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY), Türkdilli Ölkələrin Parlament Assambleyasi (TÜRKPA), Türk Dövlətləri Təşkilatı, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu, Türk Akademiyasını misal çəkmək olar.

12 iyul 1993-cü ildə Qazaxıstanın Almatı şəhərində Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan və Türkiyə Respublikalarının Mədəniyyət Nazirləri tərəfindən yaradılmış TÜRKSOY-un məqsədi türk xalqları arasında qardaşlıq münasibətlərini möhkəmləndirmək, türkdilli ölkələr arasında mədəni əlaqələri dərinləşdirmək, türk mədəniyyətini gələcək nəsillərə ötürmək və dünyaya tanıtmaqdır. TÜRKSOY-un fəaliyyəti Türkdilli Ölkələrin Mədəniyyət Nazirləri Daimi Şurası tərəfindən müəyyən edilir. Şuranın daimi iclaslarında qəbul edilən qərarlar TÜRKSOY-un Baş Katibliyi tərəfindən icra edilir.[70]

Türkdilli Ölkələrin Parlament Assambleyası (TÜRKPA) 21 noyabr 2008-ci ildə İstanbul şəhərində Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə Respublikalarının parlament rəhbərləri tərəfindən təsis olunmuşdur. Siyasi, sosial-iqtisadi, mədəni, humanitar, hüquqi və digər sahələrdə əlaqələrin inkişaf etdirilməsi, tarix və mədəniyyətin, ədəbiyyat və incəsənətin, digər sahələrin türkdilli ölkələr üçün mühüm olan dəyərlərin qorunması və gələcək nəsillərə ötürülməsinə yönəlmiş qanunvericiliklərin yaxınlaşdırılmasını təmin etməkdir. [33]

Türk Dövlətləri Təşkilatı (əvvəlki adı Türk Şurası)- Türk dövlətləri arasında hərtərəfli əməkdaşlığı inkişaf etdirmək məqsədi ilə 2009-cu ildə beynəlxalq təşkilat kimi yaradılmışdır. Təşkilatın II sammiti 22-23 avqust 2012-ci il tarixlərində Bişkekdə "Təhsil, elm və mədəni əməkdaşlıq" mövzusunda keçirilmişdir. Sammitdə qəbul edilən qərarlara əsasən Astanadakı Türk Akademiyası və Bakıda Türk Mədəniyyəti və İrsi Fondunun yaradılması ilə bağlı müqavilələr imzalanmışdır. [66]

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu- 23 avqust 2012-ci il tarixində keçirilmiş Bişkek Zirvə görüşündə Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə Respublikalarının dövlət başçıları tərəfindən təsis edilmişdir. Məqsədi layihə və proqramların dəstəklənməsi və həyata keçirilməsi yolu ilə türkdilli xalqların mədəniyyətinin, irsinin qorunması, öyrənilməsi və təşviq edilməsi üçün türk xalqları arasında mədəniyyət, təhsil, elm, insan hüquqları, informasiya və kommunikasiya,

turizm və digər sahələr üzrə fəaliyyəti dəstəkləyərək müxtəlif beynəlxalq təşkilatlarla əməkdaşlıq etməkdədir.[14]

Türk Akademiyası 2012-ci ildə Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə tərəfindən dil, ədəbiyyat, mədəniyyət və tarix sahələrində birgə elmi araşdırmaların əlaqələndirilməsi və qədim türk sivilizasiyasının orijinal mənbələr əsasında araşdırılaraq bəşəriyyətə verdiyi töhfənin qiymətləndirilməsi məqsədilə yaradılıb. [30]

Mədəni əlaqələri müxtəlif təşkilatlar vasitəsilə olduğu kimi, ikitərəfli münasibətlər çərçivəsində də inkişaf etdirmək məqsədi ilə müxtəlif sənədlər imzalanmışdır. Bunlardan biri 25 aprel 2018-ci ildə Ankara şəhərində imzalanmaş “Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Mədəniyyət Mərkəzlərinin təsis olunması, iş mexanizmi və fəaliyyətləri haqqında Saziş”dir. Bu saziş iki ölkə arasında mədəni sahədə əməkdaşlığı möhkəmləndirmək məqsədi ilə Azərbaycanın Ankara şəhərində, Türkiyənin isə Bakı şəhərində mədəniyyət mərkəzi yaratmasını nəzərdə tuturdu. [3]

Türkiyə ilə Azərbaycan arasında 1 mart 2021-ci ildə mədəniyyət və incəsənət sahələrində ikitərəfli əlaqələrin inkişafı məqsədi ilə birinci Mədəniyyət üzrə Birgə Komissiyasının iclasının protokolları imzalanıb. İclasda mədəni irs və sərvətlər, muzey, kitabxana, nəşriyyat, musiqi, teatr, kino və digər sahələrdə əməkdaşlıq üzrə müzakirələr aparılıb. [10]

# III FƏSİL. DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN HƏLLİNDƏ TÜRKİYƏNİN ROLU

## 3.1 Qarabağ müharibəsi dövründə Türkiyənin mövqeyi və fəaliyyəti

1980-ci illərin ikinci yarısında dağılmaqda olan SSRİ respublikaları arasında ərazi iddiaları ortaya çıxdı. Bundan biri də, Ermənistanın Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə olan ərazi iddiası idi. 1980-ci illərin sonlarında iki ölkə arasında yaranan konflikt müharibənin ilk göstəricisi idi. 1987-ci ildən başlayaraq Ermənilər Qarabağı özlərinə birləşdirmək məsələsini gündəmə gətirdilər. 18 oktyabr 1987-ci ildə azərbaycanlılar və ermənilər arasında atışmalar başladı. Ermənilər küçələrdə mitinq keçirir, Qarabağın və Naxçıvanın Ermənistana birləşdirilməsini tələb edirdilər. [50, s.287] 22 fevral 1988-ci il tarixində ermənilərin Qarabağı Azərbaycandan ayırma, Ermənistana birləşdirmə tələbi 23 mart 1988-ci tarixində SSRİ Ali Soveti tərəfindən hüquq və konstitusiyaya zidd olduğundan rədd edildi. [50, s.288] Həmin ilin 15 iyun tarixində Ermənistan Ali Soveti SSRİ konstitusiyasının 70-ci maddəsinə əsasən (öz müqəddaratını təyin etmə) Dağlıq Qarabağı Ermənistana qatmağa yenidən cəhd etsə də, Konstitusiyanın 78-ci maddəsinə (respublikanın əraziləri onun razılığı olmadan dəyişdirilə bilməz) əsasən istəkləri yenidən rədd edildi. 3-7 iyuldan artıq Ermənistanda nümayişlər başladı və erməni silahlı qrupları tərəfindən azərbaycanlılar yaşayan kəndlərə hücumlar edilirdi. Bölgədə qanlı münaqişələr baş verirdi. [50, s.289] 1988-ci ildən azərbaycanlılar Ermənistandan köçürülürdü. 1990-cı ilin yanvar ayında ermənilər azərbaycanlı sərnişinlərin olduğu avtobusa hücum etdilər. Bu hadisədən sonra 4 yanvar tarixində iki ölkə arasında sərhəd bağlansa da, silahlı hücumlar dayanmadı. SSRİ dağılması ərəfəsində Azərbaycanda daxili vəziyyət pisləşmişdi. Xalq SSRİ hakimiyyətini pisləyir və Dağlıq Qarabağda hadisələrə görə etiraz aksiyaları keçirirdi. Bu vəziyyətə nəzarət etmək üçün Moskva 24000 əsgər göndərdi. [50, s.294] 16 mart 1990-ci il tarixində Türkiyə Xarici İşlər Nazirliyi rus əsgərlərin Azərbaycana gətirilməsinə münasibət bildirdi: “Türkiyə, Ermənistan SSR ilə Azərbaycan SSR arasında yaranan münaqişələrə Sovet İttifaqının daxili işi kimi baxır və hadisələrin silahlı bir ölçü qazanmasından narahatdır. Türkiyə, Sovet ordusu və daxili qüvvələrin

hadisələri sakitləşdirmək və daxili sülhü bərqərar etmək üçün bölgəyə təhlükəsizlik qüvvələrinin göndərilməsindən xəbərdardır... Türkiyə münaqişədən zərər çəkənlərə humanitar yardım göstərməyə hazırdır... Gözləntimiz hadisələrin tez bir zamanda sakitləşməsi və bölgə xalqlarının sülh içində birlikdə yaşaması üçün şəraitin yaranmasıdır." Azərbaycanda baş verən hadisələr beynəlxalq hüquq baxımından "Sovet İttifaqı daxili məsələsi" kimi görülürdü. [62, s.62] Bununla belə, Türkiyə narahat idi. Çünki "silahlı münaqişələr" Türkiyənin qardaş kimi gördüyü Azərbaycanın ərazisində baş verirdi. Bu ölkədə hücum edilən, öldürülən insanlar azərbaycanlı, yəni Türkiyə türklərinin qardaşları idilər. Türkiyə qəzetlərində hər gün baş verən hadisələrlə bağlı xəbərlər yer alırdı. Sovet əsgərləri Azərbaycanda sovet idarə sistemini qorumaq adı altında 1990-ci ilin 20 yanvar tarixində qətliam törətdilər. [62, s.65]

21 yanvar tarixindən Naxçıvan Muxtar Vilayəti Sovet İttifaqından ayılıb, Türkiyəyə birləşmə qərarı verdi. [62, s.66] 1921-ci ildə imzalanan müqavilə ilə Türkiyənin buna səlahiyyətinin olmasına baxmayaraq, Ankara Moskva ilə qarşı-qarşıya gəlmək istəmədiyini bildirdi. Türk siyasətçilər, nazirlər baş verənləri qınayır və Azərbaycana dəstəyin vacib olduğunu bildirirdilər. Baş nazir Akbulut: "Buna göz yuma bilmərik" deyə bildirdi. [62, s.67] Akbulut Azərbaycandakı vəziyyətin hökumət tərəfindən diqqətlə izlənildiyini bildirərək, insanların həlak olması ilə nəticələnən hadisələrin təəssüf doğurduğunu söylədi. Baş nazir, Azərbaycan və Türkiyə arasındakı münasibəti nəzərdən qaçırmaq mümkün olmayan yaxınlıq kimi qiymətləndirirdi. [62, s.68] 22 yanvar İstanbul Taksim bölgəsində təxminən 5 min adam toplandı və Sovet İttifaqının İstanbuldakı Baş Konsulluğunun qarşısına qara əklil qoydular. Nümayişçilər Türkiyə və Azərbaycan bayraqlarını birlikdə tutub, "Mehmetçik Qafqaza, qatil Qorbaçov" kimi şüarlar səsləndirdilər. [62, s.69]

İstanbulda Azərbaycan türklərini dəstəkləyən 10 minə yaxın insandan ibarət qrup "Müstəqil Naxçıvan Respublikası dəstəklənməlidir" , "Azərbaycanda türk qırğınını dayandırın", "Qırmızı Ordu, evə get" yazılı pankartlar və şüarlarla Sovet İttifaqına etirazlarını bildirirdilər. Qrup Taksimdən Qalatasaraya qədər piyada getdi və

Sovet ittifaqının Baş Konsulluğunun qarşısına üzərində “Kommunist-erməni və Qərb əməkdaşlığı ilə Azərbaycanda işğala son” yazısı olan qara əklil qoydu. Bu Türk xalqının azərbaycanlı qardaşlarına mənəvi dəstəyi idi. [62, s.69]

23 yanvar Türkiyə böyük Millət Məclisinin iclasında Azərbaycanda baş verən hadisələr qınandı və Qırmızı ordunun Azərbaycandan çıxması istənildi. Millət vəkilləri öz çıxışlarında Türkiyənin SSRİ-nin daxili işlərinə qarışmaq fikri olmadığını, lakin haqlı olanın yanında olduqlarını bildirdilər. Baş nazir Akbulut “Azərbaycanda yaşayan insanlar bizim vətəndaşlarımızın yaxınlarıdır və bizimlə emosional və mədəni əlaqələri var. Təbii ki, bu cəhətdən hadisələrlə maraqlanır və problemin qansız və sülh yolu ilə həllini istəyirik. Bu yolda öz siyasətimizi aparır və hadisələri diqqətlə izləyirik. Bütün ölkələr Azərbaycandakı qırğına son qoyulması üçün öz töhfələrini verməlidirlər”. [62, s.78]

Bu hadisələrdən sonra Ermənistan həm siyasi həm hərbi cəhətdən hərəkətə keçdi, 24 mart 1990-ci ildə Azərbaycanın Qazax rayonuna hücum etdi. [50, s.295]

1991-ci ilin aprel ayında Türkiyənin SSRİ-dəki səfiri Volkan Vural Yeravana səfəri zamanı çıxışında Türkiyənin Azərbaycana dəstək olduğunu, Ermənistanın Azərbaycanın ərazi bütövlüyünə hədə olduğu müddətdə Türkiyə ilə Ermənistan münasibətləri inkişaf edə bilməz deyə bildirmişdir. [16, s.17]

23 avqust 1990-ci ildə Ermənistan müstəqilliyini elan etdi və artıq Dağlıq Qarabağı öz torpağı kimi görürdü. Azərbaycan 30 avqust 1991-ci ildə müstəqilliyini elan etdikdən sonra, Dağlıq Qarabağ erməniləri də “Artsax erməni xalq cümhuriyyəti”nin müstəqilliyini elan etdilər. Ermənilərin bu qərarı Azərbaycan Parlamenti tərəfindən Konstitusiyaya zidd olduğu üçün etibarsız hesab edildi. [50, s.296]

20 noyabr 1991-ci ildə dəhşətli bir hadisə baş verdi. İçərisində Azərbaycan hökümət rəhbərlərinin, iki rus generalın, Qazaxıstan və Rusiya müşahidəçilərinın, jurnalistlərin olduğu helikopter ermənilər tərəfindən vuruldu. Hadisədən sağ qalan olmadı. Bu hadisədən sonra 26 noyabr 1991-ci ildə Azərbaycan Parlamentinin qərarı

ilə Dağlıq Qarabağın “muxtar” statusu ləğv edildi, muxtar vilayət içərisində yer alan rayonlar birbaşa Bakıya tabe edildi və Ermənistana gedən dəmiryolları bağlandı. [42] 1988-1989-cu illərdə Dağlıq Qarabağda, Azərbaycan-Ermənistan sərhəddində baş verənlər, 1991-ci ildən ermənilərin işğalçılıq planlarını həyata keçirməsinə şərait yaratmış, müharibəyə gətirib çıxarmışdır. [52]

Türkiyə 1991-ci ilin sonlarında Ermənistan da daxil olmaqla Sovet İttifaqından ayrılan digər ölkələrin müstəqilliyini tanımışdır. Türkiyə baş naziri Süleyman Dəmirəl 24 dekabr 1991-ci ildə Ermənistanın Prezidenti olan Levon Ter-Petrosyana yazdığı məktubda “Cümhuriyyətimiz Ermənistan Respublikasının müstəqilliyini tanıyarkən, Ermənistanın Türkiyə Cümhuriyyəti və digər qonşuları ilə əlaqələrində beynəlxalq hüquqa əsasən tanınan ərazi bütövlüyünə və sərhədlərin dəyişməzliyi prinsipinə sadiq qalacağı, yaxşı qonşuluq əlaqələrinin bütün şərtlərini yerinə yetirəcəyi və davranışlarının bu istiqamətdə olacağı anlayışı ilə hərəkət etmişdir. Türkiyə və Ermənistan arasındakı münasibətlər də bu əsas prinsiplərə hörmət və birgə fayda təməlində təsis edilib, inkişaf ediləcəyinə inanıram” deyə bildirmişdir. Lakin baş verənlər bunların əksini göstərirdi. [52]

10 dekabr 1991-ci ildə Dağlıq Qarabağda yaşayan ermənilər referendum keçirərək Dağlıq Qarabağın SSRİ tərkibində müstəqil respublika olmasına qərar verdilər. Bu referendum qanuni olmadığından qəbul edilmədi. Dekabrın sonlarında ermənilər Xankəndi ətrafında Azərbaycan kəndlərini top atəşinə tutdular. [50, s.297]

29 dekabr 1991-ci ildə xalq səsverməsi ilə Azərbaycanın müstəqil bir respublika olması Qarabağ problemində mövqeyini gücləndirdi. [50, s.297]

30 yanvar 1992-ci ildə Praqada keçirilən ATƏT-in Nazirlər Şurasının ikinci görüşündə Azərbaycanın üzvlüyə qəbul edilməsinə qərar verdilər. Həmçinin Dağlıq Qarabağ bölgəsinə məruzəçi missiyasının göndərilməsi qərarı qəbul edildi. Bu hadisə Qarabağ probleminə beynəlxalq xarakter qazandırmışdı. [16, s.21]

1992-ci ilin fevral ayında Avropa Parlamenti Strazburg görüşündə Azərbaycana edilən hücumları qınadığını və müşahidəçi heyət göndərəcəyini bildirmişdi. [50, s.298]

Türkiyə Qarabağ münaqişəsini ATƏT və NATO kimi təşkilatlarda gündəmə gətirdi. Baş Nazir Süleyman Dəmirəl ABŞ səfəri zamanı "Qafqazı Orta Şərqin vəziyyətinə salmayın" deyə bildirmişdi. [50, s.298]

25 fevral 1992-ci il tarixində ermənilər və Rusiya 23 diviziyasının 366-cı alayı Xocalıya silahlı hücumlar etməyə başladılar. [50, s.299] Şəhəri mühasirəyə alıb, 3 istiqamətdən hücum etdilər. O gün Xocalı dağıdıldı, XX əsrin faciəsi Xocalı soyqırımı törədildi. 106-ı qadın, 83-ü uşaq, 70 ahıl olmaqla, 613 insan vəhşicəsinə qətlə yetirildi. 1275 nəfər əsir götürdü,150 nəfərin taleyi hələdə məlum deyil. [50, s.300]

Türkiyənin təcili olaraq ATƏT üzvlərinin görüşünü tələb etməsi ilə 28 fevral görüş keçirildi və "Dağlıq Qarabağda təcili atəşkəsin elan edilməsi, sərhədlərin dəyişdirilməyəcəyi və Qarabağın Azərbaycan torpağı olduğu və problemlərin sülh yolu ilə həll olunması"nı nəzərdə tutan qərar qəbul edildi. Ermənistan özünə vaxt qazanmaq məqsədi ilə bu müqaviləni imzaladı. [50, s.300]

Süleyman Dəmirəl TBMM iclasında "Qərb Qarabağ məsələsində Ermənistanı dəstəkləyər və Ermənistan barışmaz bir mövqe tutarsa, regional bir müharibə çıxar" deyə bildirmişdir.

Ermənistanın Azərbaycan torpaqlarına istiqamətlənmiş təxribatı davam edirdi. Şuşanın top atəşinə tutulması xəbəri gəldikdə, Türkiyə ABŞ və Rusiya səfirlərini Xarici İşlər Nazirliyinə çağıraraq Qarabağ məsələsində tərəfsiz olmalarını tələb etmişdir. Nəticədə 1 mart tarixində 3 günlük atəşkəs olması qərara alındı. Bu qərarda Türkiyə, ABŞ, Rusiya və Fransanın sülh təşəbbüsünün təsiri olmuşdu. [50, s.301]

Ermənistanın silahlandırılması məsələsində Türkiyə BMT və ATƏT çərçivəsində "Qafqaza silah göndərilməsi dayandırılsın" tələbini irəli sürdü. Rusiya Xarici İşlər naziri Türkiyə Xarici işlər Nazirinə müraciət edərək, Türkiyənində Qarabağ münaqişəsinin həll edilməsində rolunun artmasını istədiyini bildirmişdi. Ermənilərin Qarabağda etdiyi vəhşiliklər Türkiyədə etirazlarla qarşılanırdı. [50, s.302]

Türkiyə Ermənistanın işğalları haqqında ATƏT, NATO, İƏT kimi təşkilatlara və ABŞ-a müraciət etdi. Türkiyənin bu cəhdi uğurlu alındı və ATƏT üzvləri 24 martda Helsinkidə Dağlıq Qarabağda sülhün təmin olunması üçün beynəlxalq konfransın keçirilməsini qərara aldılar. Helsinki konfransında Belarusiyanın paytaxtı Minskdə Azərbaycan, Almaniya, ABŞ, Ermənistan, Belarusiya, İsveç, İtaliya, Fransa, Rusiya, Türkiyə, Çexiya, Slovakiyanın iştirakı ilə iyul ayında konfrans təşkil olunması qərara alındı. [50, s.303]

8 may tarixində Şuşanın erməni hərbi birləşmələri tərəfindən işğal olunması ilə bütün Dağlıq Qarabağ ermənilərin əlinə keçdi. BMT Təhlükəsizlik Şurası Qarabağa müşahidə heyəti göndərdi və baş verənlərdən narahat olduğunu bildirdi. Lakin ermənilər dayanmır, Ermənistanla Dağlıq Qarabağ arasında dəhliz rolunu oynayan Laçına hücum təşkil edirdilər. 3 günlük mühasirədən sonra 18 may Laçını işğal etdilər. [50, s.304]

Ermənilər təkcə Qarabağa deyil, Naxçıvana da hücum edirdi. Naxçıvan Parlament sədri Heydər Əliyev bu zaman Türkiyədən kömək istədi. Köməyi cavabsız qoymayan Türkiyə Ermənistana ultimatom göndərərək hücumları dayandırmasını tələb etdi. Türkiyə bu müddət ərzində beynəlxalq təşkilatları Ermənistanın hücumları dayandırması üçün təzyiq göstərməsinə çağırırdı. Rusiya isə Türkiyənin bölgədə aktivləşməsini istəmirdi. Heydər Əliyev Türkiyənin diplomatik təzyiqlərinin öz təsirini göstərdiyini və hərbi müdaxiləyə ehtiyac qalmadığını bildirdi. [50, s.305]

24 may Romada ATƏT iclasında Qarabağ münaqişəsinin həlli üçün 1 iyun tarixində təcili iclasın keçirilməsi qərarı alındı. Həmin gün NATO üzvlərinin Müdafiə Nazirləri Ermənistanın işğalçı siyasətini qınadıqlarını bildirdilər. [50, s.306]

7 iyun Azərbaycanda prezident seçkilərində Əbülfəz Elçibəy prezident seçildi. 12 iyundan artıq ermənilərin işğal etdiyi torpaqların geri alınması prosesi başladı. İlk olaraq 15 kənd geri alındı. Bu vəziyyətdə Ermənistan prezidenti Levon Ter-Petrosyan BMT-ə müraciət edərək bölgəyə müdaxilə etmələrini istədi. 16 iyunda artıq ermənilər atəşkəs tələb edirdilər. Erməni nümayəndələri isə ATƏT-in görüşündə ABŞ və

Rusiyanı Bakıya əks-hücumları dayandırması üçün təzyiq göstərmədiklərinə görə qınayırdı. [50, s.307]

25 iyun 1992-ci ildə Əbülfəz Elçibəy Qaradəniz İqtisadi Əməkdaşlıq təşkilatının iclasında iştirak etmək üçün Türkiyəyə getdi. Bu səfər zamanı Azərbaycan-Türkiyə arasında siyası və iqtisadi əməkdaşlığın inkişaf etdirilməsi qərara alındı. [50, s.307]

8 iyul tarixində Ermənistan Parlamenti Azərbaycanın Dağlıq Qarabağ bölgəsini müstəqil dövlət olaraq tanıması Azərbaycanın sərt reaksiyasına səbəb oldu və bunun beynəlxalq hüquq normalarına zidd olduğu bildirildi. Artıq Dağlıq Qarabağın vilayət statusunun olmadığı diqqətə çatdırıldı. [50, s.308]

Qarabağda vəziyyətin gərginləşməsi ilə Türkiyə yenidən diplomatik manevr etdi. Türkiyə Xarici işlər naziri Bakıya ziyarətə gəldi. Eyni gün Baş nazir Süleyman Demirəl, Baş nazir köməkçisi Erdal İnönü, Xarici İşlər naziri Hikmət Çətin və ABŞ-ın Ankaradakı səfiri Richard Barkley görüş keçirərək, Ermənistan və Azərbaycan arasında sülhün təmin olunmasının şərtlərini müzakirə etdilər. Plan hazırlandı və Ter-Petrosyanında razılığı alındı. Plana görə:

- Dağlıq Qarabağda atəşkəs təmin olunmalı və ermənilər geri çəkilməli.
- Azərbaycan və Ermənistanın ərazi bütövlüyü təmin edilməli.
- Hər iki ölkə bir-birinin daxili işlərinə qarışmamağı qəbul etməli.
- Türkiyə, Rusiya, ABŞ və Fransa başda olmaqla Minsk konfransında iştirak edən ölkələr sazişə zəmanət verməlidir. [50, s.310]

31 mart 1993-cü ildə ermənilərin Kəlbəcər və Laçının 35 kəndini işğal etməsi türk-rus ortaq təşəbbüsünün uğurlu olmasına mane oldu. [50, s.310]

2 aprel tarixində ermənilər tərəfindən Kəlbəcər işğal olundu. Azərbaycandakı bu vəziyyət ilə əlaqədar Süleyman Dəmirəl Ermənistan dövlətinə xəbərdarlıq edərək, hücumları dayandırmasını tələb etdi. Ermənistan bunu Rusiyaya bildirməsi ilə Rusiya Prezidenti Türkiyə Baş nazirinə “narahatlığınızı bölüşürük” mesaji göndərmişdi.

Kəlbəcərin işğalı ilə 7500 $km^3$ ərazi ermənilər tərəfindən işğal olunmuşdu. Azərbaycan Parlamenti BMT Təhlükəsiz Şurasını təcili görüşə çağırmışdı. Azərbaycan Müdafiə Nazirliyi Füzuli, Laçın, Qubadlıya da ermənilərin hücum etdiyini bildirmişdi. [49, s.311]

Ermənistanın Kəlbəcəri işğal etməsi ilə Türkiyə-Ermənistan sərhədi 1993-cü ilin 3 aprel tarixində birtərəfli olaraq bağlandı və Türkiyə Ermənistan əlaqələri dayandırıldı. Beynəlxalq hüquqa əsasən bir dövlət digər bir dövlətin ərazi bütövlüyünü poza, siyasi müstəqilliyinə hərbi müdaxilə edə bilməz. Türkiyə Ermənistan sərhədlərinin açılmasının tək şərti olaraq isə Dağlıq Qarabağdan Ermənistan ordusunun çıxarılmasını göstərmişdir. Türkiyənin təcavüzkar dövlətə qarşı atdığı bu təqdirəlayiq addımı legaldır və Ermənistanı beynəlxalq hüququn prinsip və normalarına əməl etməsinə vadar etmək məqsədi güdürdü. [52]

Cenevredə Qarabağ münaqişəsi ilə əlaqəli Türkiyə, ABŞ, Rusiya, Azərbaycan və Ermənistan heyətləri arasındakı görüşlərdə Rusiya və Ermənistan nümayəndələri bu görüşləri dayandırıb, Minsk qrupunda Dağlıq Qarabağ Ermənilərinə iştirak hüququ verilməsini təklif etdilər. Türkiyə Qarabağdakı vəziyyətlə əlaqədar BMT Təhlükəsiz Şurasının növbədənkənar iclasının keçirilməsini tələb etmişdi. [50, s.312]

29 aprel 1993-cu ildə BMT Təhlükəsiz Şurası  822 saylı qətnaməsini qəbul etdi. Qətnaməyə əsasən dayanıqlı sülhün təmin olunması üçün bütün hərbi əməliyyatlar dayandırılmalı, Ermənistan Kəlbəcər və işğal etdiyi digər rayonlardan çıxmalı, münaqişənin sülh yolu ilə həll olunması üçün ATƏT-in Minks qrupu çərçivəsində danışıqlar bərpa edilməli idi. [15]

3 may 1993-cu ildə Rusiya Prezidenti Yeltsinin təşəbbüsü ilə Türkiyə və ABŞ ATƏT çərçivəsində sülh prosesini başlatdıqlarını bildirdilər. Azərbaycan Rusiya, Türkiyə və ABŞ təkliflərini qəbul etdi, əvvəl Ermənistan razılaşmasa da, sonradan razılaşacağını bildirdi. Ermənistanın məqsədi Qarabağ ermənilərini bir tərəf kimi qəbul etdirib, ATƏT-in Minsk qrupu ilə görüşlər təşkil etmək idi. [50, s.313]

Yeni bir sülh təşəbbüsü irəli sürüldü. ATƏT üzvü 9 ölkə ABŞ, Rusiya, Fransa, Türkiyə, İtaliya, Almaniya, Çexiya, İsveç, Belarusiya nümayəndələri Romada 3-4 iyun tarixində bir araya gələrək BMT Təhlükəsiz Şurasının 822 saylı qətnaməsini tətbiq etmək üçün 9 ölkə tərəfindən "təxirə salınmaz proqram" təşkil etdilər. Bu proqrama görə, Azərbaycan və Ermənistan 11 iyunda bu programı təsdiqləməli, Ermənilər işğal etdikləri torpaqları 15 iyundan boşaltmağa başlamalı, 18 iyunda 60 günlük atəşkəs imzalanmalı, 20 iyunda ermənilər bölgəni tamamilə boşaltmalı, 21 iyunda ATƏT müşahidəçi qrup bölgədən ordunun çıxarılmasına əmin olmalı, 1 iyuldan bölgəyə 50 nəfərlik müşahidəçi qrup yerləşdirilməli, 7 avqustdan Minsk qrupunun görüşləri başlamalı idi. Ermənistan "Dağlıq Qarabağ ermənilərini razı salmaq" bəhanəsi ilə 1 ay vaxt istəsə də, bunu qəbul etmək niyyəti olmadığı məlum idi. [50, s.313]

Bu dövrdə ölkədə daxili vəziyyət pisləşdi, prezidentin istefası tələb olunurdu. Vəziyyətin pisləşməməsi üçün prezident Elçibəy Bakını tərk etdi. [50, s.314]

5 iyul 1993-cu ildə ermənilər Ağdamın mərkəzinə hücuma başladılar. 22 iyulda artıq bəzi kəndlər işğal edilmişdi. Azərbaycan Respublikasının Ali Sovetinin sədri Heydər Əliyev Ağdamdakı vəziyyətlə bağlı Türkiyə, ABŞ, Rusiya başda olmaqla dünya dövlətlərinə və beynəlxalq təşkilatlara Ermənistanın işğalçı siyasətini dayandırılması üçün çağırış etdi. ATƏT və BMT Təhlükəsizlik Şurası Kəlbəcər və digər ərazilərdən ermənilərin çıxarılmasına çalışsada, ermənilər işğalçı siyasətindən əl çəkməyib, 23 iyulda Ağdam və Ağdərəni işğal etdilər. [50, s.315] Bu hadisədən bir gün sonra BMT Təhlükəsizlik Şurası Azərbaycanın çağırışları və ATƏT Minsk qrupunun hesabatına əsasən 853 saylı qətnaməni qəbul etdi. Qətnamə 822 saylı qətnaməni təsdiq edərək, Ağdam və Azərbaycanın digər rayonlarının işğal olunmasını, mülkü əhaliyə və yaşayış məntəqələrinə edilən hücumları pisləyir, bütün hərbi əməliyyatların dayandırılmasını, işğal olunmuş ərazilərdən hərbi qüvvələrin çıxarılmasını tələb edir, Ermənistan Respublikasını 822, 853 saylı qətnamələrə əməl etməyə və ATƏT-in Minsk qrupunun təkliflərini qəbul etməyə çağırırdı. [15]

Türkiyə XİN baş verənlərə çevik reaksiya verərək, “bu hücumlar dərhal dayandırılaraq işğal edilən Azərbaycan torpaqlarının boşaldılması təmini BMT və ATƏT kimi səlahiyyətli beynəlxalq təşkilatlar və əlaqəli dövlətlərin hərəkətə keçirilməsi daxil olmaqla bütün ehtiyat tədbirlərinin alınması üçün lazımlı təşəbbüs göstərməlidir” deyə bildirmişdir. Həm Azərbaycanın, həm Türkiyənin dünya ictimaiyyətinə müraciət etməsi nəticə vermirdi, ermənilər Azərbaycan torpaqlarını işğal etməyə davam edirdilər. [50, s.316] Qubadlı, Zəngilan, Cəbrayıl növbəti hədəfləri idi. Artıq bu rayonların Bakı ilə əlaqəsi kəsilmişdi. 31 avqust Qubadlını işğal etdilər. [50, s.317]

1993-cü ilin 25 sentyabrında Moskvada Azərbaycan Respublikasının Ali Sovetinin sədri Heydər Əliyev ilə Ermənistanın Prezidenti Levon Ter-Petrosyan arasında Qarabağda baş verənləri müzakirə etmək üçün keçirilən görüşdən sonra Heydər Əliyev sülh danışıqlarının davam etdirilməsinin lazım olduğunu, Ter-Petrosyan isə xüsusilə Rusiyanın vasitəçiliyi ilə başladılan, Azərbaycan və Dağlıq Qarabağ erməniləri arasındakı dialoqun yaxında sülhə nail olacağı məsələsində ümidlərini gücləndirdiyini bildirmişdir. Bu görüşdə Rusiyanın məqsədi atəşkəsi təmin edərək, Türkiyə və İranın məsələyə müdaxiləsinin qarşısını almaq idi. [50, s.317]

14 oktyabr 1993-cu ildə BMT TŞ-nin 874 saylı qətnaməsi qəbul edildi. Təhlükəsizlik Şurası özünün 822, 853 saylə qətnamələrini təsdiq edərək, atəşkəsin təmin olunmasında ATƏT Minks qrupunun dəstəyini nəticəsində sülhün təmin olunmasını, 28 sentyabr Minsk qrupunun iclasında qəbul edilmiş «822 və 853 Qətnamələrinin həyata keçirilməsi ilə əlaqədar təxirə salınmaz tədbirlərin yeniləşmiş qrafikini» ni qəbul etməyə, zəbt edilmiş torpaqların boşaldılmasına çağırır. Mülki əhaliyə yardım göndərilməsi, qaçqın və məcburi köçkünlərin təhlükəsiz şəkildə öz yurdlarına qaytarılmasının təmin olunmasını istədiyini bildirirdi. [15]

25 oktyabr Zəngilan işğal edildi. 11 noyabrda BMT Təhlükəsizlik Şurası 884 saylı qətnaməni qəbul etdilər. Qətnamədə bundan əvvəlki 822, 853, 874 sayı qətnamələr təsdiq edildi, Zəngilan rayonu və Horadiz şəhərinin işğalını pisləyərək,

hərbi əməliyyatlara son qoyulmasını, işğalçıların oradan çıxarılmasını tələb edir, əhalinin təhlükəsizliyinin təmin olunmasının vacib olduğunu bildirirdi. Bu qətnamə BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi dördüncü qətnamə olsa da, Ermənistan heç birinə məhəl qoymamışdı. [15]

1994-cü ildən Rusiya münaqişənin həll edilməsi istiqamətində fəaliyyətə başlamışdı. 22 apreldə Rusiyanın hazırladığı plan Azərbaycan Məlli Məclisinə təqdim olunmuşdu. Plana görə, Ermənistan Azərbaycan torpaqlarında olan əsgərlər Dağlıq Qarabağda toplaşmalı, Dağlıq Qarabağ ilə Azərbaycan arasında yerləşən tampon bölgəyə MDB sülh qüvvələri yerləşdırilməli, Laçın dəhliz olaraq elan edilməli və erməni ordusunun nəzarətində olmalı, Kəlbəcər və Laçında mövcud olan hərbi və texniki ləvazimatlar Azərbaycan tərəfindən tələb edilməməli, Şuşaya əvvəlcə erməni əsgərləri yerləşdirilməli, sonra isə 60000 azərbaycanlı məcburi köçkünün bu əraziyə qayıtması təmin edilməli, sülh danışıqlarında Dağlıq Qarabağ erməniləri bir tərəf kimi qəbul edilməli, Azərbaycan-Ermənistan-Naxçıvan arasında əlaqə xəttləri yenidən açılmalı, Azərbaycan-Ermənistan sərhədi Azərbaycan ordusunun nəzarətində olmamalı, işğal bölgəsindən erməni ordusu çıxarıldıqdan sonra Azərbaycan ordusu yerləşdirilməməli, Dağlıq Qarabağın muxtar statusu tanınmalı, Kür və Araz çayları arasındakı Azərbaycan torpaqları təhlükəsizlik bölgəsi elan edilməlidir. Lakın bu plan Azərbaycanın mənafeyinə uyğun olmadığı üçün qəbul edilmədi. Ölkə rəhbərləri və ictimaiyyət qəti şəkildə etiraz etdi.Türkiyə bu plana münasibət bildirərək, bu planı “Azərbaycanın ölüm fərmanı” olaraq adlandırdı. Növbəti cəhd 4-5 may tarixlərində Qırğızıstanın paytaxtı Bişkek şəhərində müharibəni sonlandırmaq məqsədi ilə toplaşdılar və bir protokol hazırlandı. Protokolda qeyd olunanlar Azərbaycanın milli mənafeyinə uyğun olmadığı üçün imzalamaq istəmirdi. Lakın Rusiyanın təsiri ilə Azərbaycan bu protokolu imzalamalı oldu. [50, s.320]

6 dekabr 1994-cü ildə ATƏT-in Budapeştdə keçirilən dövlət başçıları zirvəsində ATƏT-in sülh qüvvələrinin Qarabağ bölgəsinə yerləşdirilməsi qərara alındı. Azərbaycan bu qərarı dəstəkləsə də, Ermənistan dəqiq qərarını bildirmədi. Bu qərarın alınmasına Türkiyə XİN Hikmət Çətin münasibət bildirərək, dəstəklədiyini bildirdi.

Türkiyə ATƏT beynəlxalq təhlükəsizlik qüvvələri personalının təqribən üçdə bir hissəsini və bəzi maddi-texniki vasitələri təmin etməyə hazır olduğunu bildirmişdi. [50, s.322]

Ümumi olaraq Türkiyənin müharibə dövründə baş verənlərə münasibəti belə olmuşdur: Azərbaycana daima dəstək olmuş, Ermənistanın işğallarını pisləmiş, Qərb ölkələrini Ermənistana dəstək göstərmələrinin regional müharibəyə gətirib çıxaracağını bildirmişdi. Türkiyə müxalifət qüvvələrinin hərbi dəstək göndərilməsi kimi təkliflərinə cavab olaraq, hərbi yardımın müsəlman-xristian müharibəsi ilə nəticələ biləcəyini bildirmişdi. [50, s.322]

## 3.2 Azərbaycan-Türkiyə strateji əməkdaşlığının sülh danışıqları prosesinə təsiri

Türkiyənin Qarabağ siyasətinin əsasını problemin sülh yolu həll edilməsi, işğal olunmuş Azərbaycan topraqlarının geri qaytarılması, regional əməkdaşlığın inkişaf etdirilməsi təşkil edirdi. Azərbaycan Türkiyə üçün Qafqazda ən yaxın müttəfiqdir. Həmçinin iki ölkə arasında enerji sahəsində əməkdaşlığın mövcüdluğu, təkcə Qarabağ məsələsində deyil, bütün məsələlərdə Türkiyənin Azərbaycana dəstək olmasına səbəb olmuşdu.

12 may 1994-cü ildə Bişkekdə Azərbaycan və Ermənistan arasında atəşkəs müqaviləsi imzalanması ilə Qarabağ məsələsinin həll edilməsi üçün danışıqlar prosesi başladı. Bu proses ATƏT-in Minsk qrupu fəaliyyəti çərçivəsində inkişaf etdirilirdi. [50, s.324]

15 may 1995-ci ildə Moskvada ATƏT Minsk qrupunun təşəbbüsü ilə görüş təşkil edildi. Bu görüşdən sonra daha bir neçə görüş keçirilsə də, heç bir nəticə əldə olunmamışdı. 11-12 sentyabrda ATƏT Minsk qrupunun 12 ölkə nümayəndəsinın iştirakı ilə baş tutan görüşlərdə Minsk qrupunun həmsədrləri olan Finlandiya və Rusiya ilə birlikdə Türkiyə, ABŞ və İsveçrə nümayəndələri ilə birlikdə bir koordinasiya iclası

etdikdən sonra təkliflərini tərəflərə göndərdilər. Təklifdə atəşkəsin rəsmi olaraq qəbul edilməsi, tərəflər arasında tampon bölgə yaradılması, uçuşların qadağan edilməsi, xüsusən Laçın və Şuşanın vəziyyəti və Qarabağın gələcək statusunun müəyyənləşdirilməsi məsələləri yer alırdı. [50, s.325]

25 oktyabr 1996-ci ildə Moskvada baş tutan Qaradəniz İqtisadi Əməkdaşlıq Təşkilatının zirvə görüşündə Süleyman Dəmirəl Azərbaycanın və Ermənistanın rəhbərləri ilə görüşdə "Prinsiplərin bəyannaməsini" imzalanmasını təklif etmişdi. Bu bəyannaməyə əsasən:

-Azərbaycanın ərazi bütövlüyü qorunacaq;

-Dağlıq Qarabağ bölgəsinə muxtariyyət veriləcək;

-Bu muxtariyyət təhlükəsiz təmin ediləcək;

-Ermənistanın prezident müşaviri Lirar Libaridyan və Azərbaycanın prezident müşaviri Vəfa Quluzadə arasında sülh danışıqları yenidən başladılacaq;

-ATƏT Minsk sülh prosesinə zərər verilməyəcək;

-ATƏT-in dekabr ayında təşkil olunacaq zirvə görüşünə müsbət mesajla gediləcək; [50, s.326]

Bütün bu danışıqlar nəticə vermir, yenə də Ermənistan tərəfindən atəşkəs pozulurdu. Türkiyə sülh prosesini davam etdirilməsində fəallıq göstərirdi. İstanbulda təşkil edilmiş Qaradəniz İqtisadi Əməkdaşlıq Təşkilatının zirvə görüşündə Süleyman Dəmirəl hər iki dövlətin başçısını bir araya gətirərək danışıqların aparılmasına və beləliklə problemin böyüməsinə mane olmağa çalışmışdı. Dəmirəl "sülhü pozmaq asan, yenidən təmin etmək isə çətindir" deyə bildirmiş, Qafqazda sülhün təmin olunması üçün region ölkələrinin əməkdaşlıq etmələrinin vacib olduğunu vurğulamışdır. Bu zirvə görüşü zamanı Ermənistana işğal etdiyi Azərbaycan torpaqlarından çəkiləcəyi təqdirdə Azərbaycan neftinin daşınmasında Ermənistan ərazisindən tranzit kimi istifadə edilməsi təklifi edildi. Ermənistan bu təklifi yaxşı

qarşıladı lakın məsələnin qondarma Dağlıq Qarabağ Respublikası ilə əlaqəli olduğunu bildirdi. [50, s.327]

2004-cü ilin aprelində Praqada Minsk Qrupu həmsədrlərinin təşəbbüsü ilə Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Ermənistanın xarici işlər naziri Vardan Oskanyan prezidentlərin xüsusi nümayəndəsi olaraq görüşməsi ilə problemin həlli üçün yeni danışıqlar dövrü başlandı. Praqa prosesi adlandırılan bu dövrdə ən mühüm hadisə həmsədrlərin 2007-ci ilin noyabr ayında Madriddə Əsas Prinsiplər Sənədinin hazırlaması olmuşdur. Madrid Prinsipləri hələ görülər davam edərkən 2009-cu ildə yenilənmişdir. Bu çərçivədə Madrid Prinsipləri Dağlıq Qarabağın ətrafdakı işğal olunmuş Azərbaycan torpaqlarının qaytarılması, Yuxarı Qarabağa təhlükəsizlik və özünüidarəhüququnu təmin edən müvəqqəti status verilməsi, Ermənistan və Dağlıq Qarabağı birləşdirən dəhlizin (Laçın dəhlizi) təsis edilməsi, iradənin hüquqi yolla ifadə edilməsi ilə Dağlıq Qarabağın gələcəkdə yekun statusunun müəyyən edilməsi, məcburi köçkünlərin qayıdış hüququ verilməsi və sülh qorumaq missiyası da daxil olmaqla beynəlxalq təhlükəsizlik təminatının verilməsini əhatə edir. [72, s. 22]

Qarabağda təhlükəsizliyin yenidən bərpa edilməsi üçün müxtəlif modellər təklif edilmişdi. Cənubi Qazqazda yerləşən üç dövlətdən əlavə qonşu güclü dövlətlər Türkiyə, Rusiya, İran önəmli aktorlar idi. Regiondan kənar yerləşən ABŞ, Avropa Şurasınında iştirakı təklif olunmuşdu. [60, s.106]

3+1 və ya 4+0 təhlükəsizlik modəllərində üç Cənubi Qafqaz ölkəsi və Rusiya təklif olunurdu. Bu model regionda Rusiyanın SSRİ dövründəki təsir gücünü bərpa etmək məqsədi daşıyırdı. başqa dövlətin müdaxiləsini Rusiyanın regiondakı siyasətinə uyğun deyildi. [60, s.107]

3+2 modeli isə Azərbaycan, Ermənistan, Gürcüstan, Rusiya ilə yanaşı İranın da iştirakını nəzərdə tuturdu. [60, s.107]

3+3 təhlükəsizliklik modeli Türkiyənində bu prosesdə iştirakını nəzərdə tuturdu. Bu modelin müsbət tərəfi kənar dövlətlərin regiona müdaxiləsinə mane olması və 3

böyük dövlətin birgə əməkdaşlığını nəzərdə tutan model olması idi. Lakın bu üç dövlətin xüsusən də, Türkiyənin Rusiya və İranla rəqabəti bu modeli həyata keçməsini çətinləşdirirdi. [60, s.107]

4+2 modeli isə tamamilə Rusiyanın mənfəətinə uyğun idi. Burada əsas 4 dövlət Azərbaycan, Ermənistan, Gürcüstan, Rusiya; ikinci qrup isə İran və Türkiyə idi. Bu model 3+3 modelinə yaxın idi, çünki nəticədə eyni 6 dövlətin iştirakını nəzərdə tuturdu. [60, s.108]

### 3.3 44 günlük müharibə və torpaqlarımızın azad olunması prosesində Azərbaycan-Türkiyə strateji əməkdaşlığının rolu

Ermənistan silahlı qüvvələri tərəfindən Dağlıq Qarabağ və ətraf yeddi rayonun işğalı 28 il davam etdi. 1994-cü il Bişkek protokolu ilə Ermənistan və Azərbaycan arasında atəşkəs sənədi imzalansa da, bu dövr ərzində Ermənistanın bu sənədə əhəmiyyət vermədiyini müxtəlif təxribatlara əl atması sübut edirdi. [50, s.324]

Azərbaycan ilə Ermənistan arasında 1994-cü ildə bağlanmış atəşkəs müqaviləsindən sonra dəfələrlə atəşkəsin pozulması halları baş versə də, atəşkəsin ən ciddi pozulması halı 2-5 aprel 2016-ci ildəki müharibə zamanı baş vermişdir. “4 günlük müharibə”nin miqyası və nəticələri fərqli olmuşdur. Bu müharibə yalnız səngərdə deyil, media və sosial şəbəkələrdə də baş vermişdir. Müharibənin ən şiddətli döyüşləri 2 aprel tarixindən başlamışdır. Erməni mövqelərinə qarşı sürətli və intensiv hücum edən Azərbaycan ordusu, düşmənin nəzarətində olan bəzi mövqeləri geri qaytara bilmişdir. [37, s.87]

Hər zaman olduğu kimi bu müharibə zamanı da Ermənistan Azərbaycan haqqında əsassız iddialar irəli sürmüşdür. Azərbaycan ordusunu müxtəlif yalanlarla dünya ictimaiyyətinin gözündən salmağa çalışmışdır. Bu tip xəbərlər Ermənistana fayda qazandırmamış və müharibə Ermənistanın uğursuzluğu ilə nəticələnmişdir. Azərbaycan strateji önəmi olan bir çox mövqelər əldə etmişdir. Tərtərin Talış kəndi ətrafında vacib yüksəkliklər, Cəbrayılın Lələtəpə yüksəkliyi və Cocuq Mərcanlı kəndi,

Goranboyun Gülüstan kəndi və Tərtərin Suqovuşan kəndi istiqamətində bəzi mövqelər düşməndən təmizlənmişdir. [37, s.88]

Türkiyənin müharibə zamanı Azərbaycana verdiyi dəstək çox önəmli olmuşdur.

Bu müharibə zamanı Azərbaycan xalqının orduya inamı daha da artdı, Qarabağın geri alınacağına dair ümidləri artan xalqın motivasiya və əhval-ruhiyyəsini yüksəldi. Bu motivasiya Tovuz döyüşləri və 44 günlük mübaribə zamanı özünü göstərdi.

Növbəti dəfə Ermənistan ordusu 12 iyul 2020-ci il tarixindən başlayaraq Azərbaycan-Ermənistan sərhəddində yerləşən Tovuz bölgəsinə hücum etmiş və bu hücumlar bir neçə gün davam etmişdir. Ermənistan əvvəllər də bu bölgədə sivil və hərbi məntəqələrə qarşı atəşkəs rejimini pozmuşdur. Bu bölgə çox önəmli layihələrin, Bakı-Tbilisi-Qars dəmir yolunun, Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin və TANAP layihəsinin keçdiyi ərazidir. Dağlıq Qarabağ ərazisi olmayan Tovuz bölgəsinin hədəf olmasının səbəbi Azərbaycanın iqtisadiyyatına zərbə vurmaq, inkişaf etməkdə olan Türkiyə-Azərbaycan əlaqələrini zəiflətmək olmuşdur. Tovuz döyüşləri zamanı Türkiyə Azərbaycana hər cür dəstək verməyə hazır olduğunu bildirmiş, yüksək səviyyəli dövlət məmurları isə bu hücumlarla əlaqəli sərt reaksiyalar vermişdir. Rəcəb Tayyib Ərdoğan hücumları şiddətlə qınadıqlarını və bu vəziyyətin adi bir sərhəd pozulması olmadığını, əksinə birbaşa Azərbaycana qarşı istiqamətlənmiş təxribat olduğunu bildirmişdir. [37, s.89]

Türkiyə Respublikası Xarici İşlər Nazirliyi tərəfindən edilən açıqlamada Ermənistanın beynəlxalq ictimaiyyətin diqqətini başqa istiqamətə yönəltməklə, münaqişəyə yeni ölçü qazandırmaq istədiyini, lakin bu addımın nəticəsiz qalacağını bildirmişdir. Milli Müdafiə naziri Hulusi Akar, “Azərbaycan bizim canımızdır. Biz Türkiyə olaraq hər zaman can qardaşımız Azərbaycanın yanında olmağa davam edəcəyik”- deyə bildirmişdir. Akar, Ermənistanın Qarabağa haqsız və qanunsuz soxularaq, hüdudlarını aşaraq Tovuz rayonuna hücum etdiyini bildirərək, Azərbaycanın acısını dərindən hiss etdiyini, hücumları qınadığını və hər zaman Azərbaycanın yanında olduqlarını dilə gətirmişdir. [37, s.90]

Naxçıvan Muxtar Respublikası Ordusunun komandanı Kərəm Mustafayev və Azərbaycan müdafiə nazirinin müavini, Hərbi Hava Qüvvələrinin komandanı Ramiz Tahirov ilə Türkiyə Respublikası Müdafiə Sənayesi Baş Naziri İsmail Dəmir arasında baş tutan görüşdə iki ölkə arasında müdafiə sənayesi sahəsində əməkdaşlıq məsələləri müzakirə edilmişdir. Görüşdən sonra İsmail Dəmir rəsmi twitter hesabında "Müdafiə sənayemiz SİHA-larımızdan tutmuş sursat və raketlərimizə, elektron döyüş sistemlərimizə qədər bütün təcrübə, texnologiya və imkanları ilə hər zaman Azərbaycanın ixtiyarındadır.Azərbaycan ordusuna yeni sistemlər qazandırmaqla yanaşı, mövcud sistemlərin modernləşdirilməsi, texniki xidmət, təmir və təlim ilə bağlı birgə fəaliyyət göstərəcəyik."-deyə qeyd etmişdir. [37, s.]

Tovuzda başlayan hücumların üzərindən çox keçmədən yenidən 27 sentyabr 2020-ci il səhər saatlarında Ermənistan Silahlı Qüvvələri yenidən genişmiqyaslı təxribata başladı və Azərbaycan ordusunun cəbhəboyu zonada yerləşən mövqelərini həmçinin yaşayış məntəqələrini iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutmağa başladı. Ermənistan ordusunun təxribatlarının qarşısını almaq, dinc əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan ordusunun komandanlığı tərəfindən qoşunların bütün cəbhə boyu sürətli əks-hücum əməliyyatı başlaması barədə qərar verildi. Sonradan “Dəmir Yumruq” adını alan bu əməliyyat qısa müddətdə alovlandı və Vətən müharibəsinə çevrildi. [17]

Bütün bunlara Türkiyə rəsmiləri reaksiya verdi və Türkiyənin hər zaman Azərbaycanın yanında olacağını bildirdi. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan öz çıxışında bildirmişdi- “Erməni xalqını onları fəlakətə aparan hökumətlərinə və onları bir kukla kimi oynadanlara qarşı çıxmağa, gələcəklərinə sahib çıxmağa dəvət edirəm. Bütün dünyanı işğala və zülmə qarşı verdikləri mübarizədə Azərbaycanın yanında olmağa çağırıram. 30 ilə yaxındır məsələyə etinasız yanaşan ATƏT-in Minsk qrupunun həmsədr ölkələri həll üçün fəaliyyətdən, təəssüf ki, çox uzaqdır. Ermənistan bölgədə sülh və sabitliyin önündəki ən böyük təhdid olduğunu növbəti dəfə göstərib. Türk milləti hər zaman olduğu kimi bu gün də bütün imkanları ilə azərbaycanlı qardaşlarımızın yanındadır”. [17]

Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu çıxışlarında Ermənistanın işğalçılıq siyasətini pislədiyini və Türkiyənin Azərbaycana dəstək olduğunu bildirirdi: “Ermənistan  təxribatlara əl atmaq əvəzinə, münaqişənin sülh yolu ilə həllinə səy göstərməlidir. Biz hər bir məsələdə olduğu kimi, işğal olunmuş torpaqlar və Qarabağ məsələsində də hər vasitə ilə qardaş Azərbaycanın yanındayıq, bundan sonra da yanında olacağıq. Azərbaycan bu problemin necə həll olunmasını istəyirsə, biz də o şəkildə Azərbaycanın yanında olmağa davam edəcəyik” . [28]

Müdafiə naziri Hulusi Akar Türkiyənin daima Azərbaycana dəstək olacağını və Ermənistanın Qafqazda sülh və sabitliyin əngəli olduğunu söyləmişdir. [17]

Türkiyə Respublikası Azərbaycana dəstəyini hər bir vasitə ilə həyata keçirir.bu dəstəyin səbəbi iki ölkə arasında yüksək səviyyədə siyasi əlaqələrin və strateji əməkdaşlığın mövcudluğu, qardaşlıq münasibətinin olması ilə yanaşı Azərbaycanın haqqlı olaraq mübarizə aparmasıdır. Türkiyə həm regional sabitliyə nail olmağa, həm də beynəlxalq hüquq normalarina riayət olunmasına çalışır.

Türkiyə 44 günlük müharibə dövründə NATO və digər üzvü olduğu beynəlxalq qurumlar çərçivəsində Azərbaycanın haqlı olduğunu müdafiə etmiş və Azərbaycanın əleyhinə qərarların alınmasına, digər ölkələrin manupulyasiya edilməsinə maneə olmağa çalışırdı.

Türkiyə böyük millət məclisində yer alan dörd siyasi partiya tərəfindən həm tovuz döyüşləri zamanı 16 iyul tarixində, həm də 44 günlük müharibə zamanı 28 sentyabr tarixində Ermənistanın hücumlarının şiddətlə qınadığını, Ermənistanın bu fəaliyyətlərinin sülhə maneə olduğunu bildirilmiş, Azərbaycana dəstək parlament səviyyəsindədə bildirilmişdir. [71, s.55]

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev 27 sentyabr tarixində müharibənin başlaması ilə xalqa ilk müraciətini etdi: “Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!”. 44 günlük Vətən müharibəsi dövründə Prezident İlham Əliyev müxtəlif informasiya vasitələri ilə: televiziya və radio kanalları, öz rəsmi “Twitter”

hesabı ilə etdiyi müraciətlər xalqda ruh yüksəkliyi yaradır, xalqı bir yumruq kimi birləşməyə həvəsləndirirdi. [21]

Vətən müharibəsi başladıqda Azərbaycan ordusu kifayət qədər güclü idi və müasir silahlarla silahlanmışdı. Türkiyənin Azərbaycana verdiyi hərbi dəstək II Qarabağ müharibəsində vacib faktorlardan biri olmuşdur. Müharibə zamanı önə çıxan amillərdən biri Türk müdafiə sənayesi istehsalı olan pilotsuz uçuş aparatları (PUA) və silahlı pilotsuz uçuş aparatlarının istifadəsi olmuşdur. Bu müharibədə Türkiyədə istehsal edilən "Bayraktar TB2" zərbə pilotsuz uçuş aparatlarından istifadə edilməsi Azərbaycanın zəfər qazanmasında rol oynamışdır. 44 günlük müharibə bəzən "PUA müharibəsi" də adlandırılmışdır. Dronlar düşmənin texnikasına və canlı qüvvəsinə dəqiq zərbələrin endirilməsi, artilleriya atəşini korreksiya etmək və kəşfiyyat aparmaq məqsədləri ilə istifadə olunur. [25]

Azərbaycanın əks-hücum əməliyyatları zamanı qarşıya qoyduğu məqsədlərdən biri də dinc əhalinin müharibədən zərər çəkməsini minimallaşdırmaq olduğundan PUA-ların istifadəsi daha məqsədəuyğun idi. Onlar yüksək dəqiqliyə malik olduqları üçün hərbi hədəflərin məhv edilməsində istifadə edilirlər.

İlham Əliyevin "France 24" kanalına verdiyi müsahibədə fransız müxbirin "Siz Türkiyə istehsalı olan neçə dron cəlb etmisiniz?" sualına İlham Əliyev gülərək "Hədəflərimizə çatmağımız üçün kifayət qədər varımızdır. Zənnimcə məni başa düşə bilərsiniz ki, bu mənim açıqlamamağa üstünlük verdiyim məlumatdır" cavabını verir, müxbirin "lakin onlar bu münaqişədə öz sözünü deyirlər?" sualına "Onlar çox müasir, inkişaf etmiş silahlardır. Sizə deyə bilərəm ki, təkcə Türkiyədən əldə etdiyimiz dronlar vasitəsi ilə biz Ermənistanın bir milyard dollar dəyərində hərbi texnikasını məhv etmişik. Bu onlar üçün ciddi ziyandır" deyə cavab vermişdir. [18]

Hərbi sahədə əməkdaşlığın hüquqi bazasını 2010-cu ildə imzalanan "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında müqavilə formalaşdırmışdır. Sazişin ən vacib xüsusiyyəti üçüncü tərəfin hücumu zamanı bütün imkanlarla hücum edilən tərəfin dəstəklənməsini

təmin etməsidir. Bu sazişdən sonra da iki tərəf arasında mütəmadi olaraq keçirilən görüşlər, hərbi təlimlər müdafiə imkanlarının inkişafına səbəb olmuşdur. Keçirilən təlimlər Azərbaycan-Türkiyə münasibətlərini yüksək səviyyəyə çatdırılmasında, Azərbaycan ordusunun döyüş hazırlığının yüksəldilməsində, güclənməsində, 44 günlük müharibənin zəfər ilə nəticələnməsində xüsusi rol oynamışdır. [5]

“TURAZ Qartalı” hərbi təlimləri 2013, 2015, 2017, 2019, 2020-ci illərdə Azərbaycanda, “TURAZ Şahini” hərbi təlimləri isə 2014, 2016, 2018, 2021-ci illərdə Türkiyədə keçirilmişdir.[339] “Mustafa Kamal Atatürk” adlı təlimlər isə 2019 [58] və 2021-ci ildə[68] Azərbaycanda keçirilmişdir. Bütün bunlar Azərbaycan Türkiyə hərbi əməkdaşlığının sübutudur. İlham Əliyev öz çıxışlarının birində belə qeyd edib: “Biz o ölkəyik ki, bizim Türkiyə kimi müttəfiqimiz var. Biz çox xoşbəxt ölkəyik ki, bizim Türkiyə kimi müttəfiqimiz, qardaşımız var. Əlbəttə ki, Türkiyənin bizə göstərdiyi mənəvi dəstək, eyni zamanda, Türkiyə müdafiə sənayesinin məhsullarının bizdə olması bizi gücləndirir və bunu bütün dünya görür.” [22]

Azərbaycan və Türkiyənin media qurumları arasında əlaqələr də çox genişdir. Türk mediası 44 günlük müharibə dövründə gərçəklərin dünya ictimaiyyətinə çatdırılmasında iştirak etmişdir. Bütün türk televiziya kanalları bu dövrdə operativ şəkildə canlı yayımlar edərək Azərbaycana dəstək verirdilər. Xüsusilə “Haber Global” telekanalının müxbirləri Hasan Uylaş, Murat Karataş, Ela Sezen anbaan cəbhə xəttində baş verənləri canlı olaraq yayımlayırdılar. CNN Türk telekanalının müxbirləri Fulya Öztürk və Halil Kahraman müharibənin ilk günündən Ermənistanın Azərbaycan xalqına qarşı törətdiyi hərbi cinayətləri, düşmənin Gəncə, Bərdə və Tərtərə raket hücumlarını canlı yayım vasitəsi ilə bütün dünyaya çatdırırdılar. Azərbaycanın və Türkiyənin müştərək istehsalı olan “Fulya” sənədli filmi 44 günlük müharibə zamanı müxbir Fulya Öztürk və operator Halil Kahramanın yaşadıqlarından bəhs edir. Bu film vətən müharibəsi ilə bağlı bütün həqiqətləri dünya ictimaiyyətinə çatdırılmasında mühüm rol oynayacaqdır. [34]

Dezinformasiyanın yayılmasının qarşısının alınmasında önəmli amil olmuşdur. Türkiyə rəsmiləri media vasitəsi ilə ictimaiyyətə verdikləri açıqlamalarda həm Türkiyənin Azərbaycana dəstək olduğunu bildirir, həm də Azərbaycanın həyata keçirdiyi əməliyyatların legitimliyini vurğulayırdılar. Qlobal mediada ən mühüm aktorlardan olan TRT və AA kimi media qurumları başda olmaqla digər türk media qurumları da hadisə yerindən canlı yayımlar edərək Ermənistanın törətdiyi müharibə cinayətlərini beynəlxalq medianın diqqətinə çatdırmışdır. Qarabağ müharibəsində baş verənləri dünya ictimaiyyətinə çatdırılmasında təsirli vasitə olmuşdur. Ermənistanın yaydığı yalnış informasiya türk mediası tərəfindən təkzib edilirdi. Türk mediasının Azərbaycanın haqq mübarizəsini dünyaya çatdırmaqda vacib və dəstəkləyici rolu olmuşdur. [72, s.61]

Müharibə zamanı Ermənistan gündəmi dəyişmək üçün tez-tez Türkiyəni hədəfə alan əsassız iddialar irəli sürürdü. Bunlardan biri Türkiyəyə aid F-16 təyyarələrinin erməni döyüş təyyarələrini havada məhv etməsi ilə bağlı yayılmış yalnış xəbər idi. Həm Türkiyə, həm Azərbaycan mediası bu kimi yalnış xəbərlərin yayılmasının qarşısını almağa çalışırdı. Buna görə də, Türkiyə və Azərbaycan bütün sahələrdə olduğu kimi rabitə və media sahəsində də birlikdə mübarizə aparırdılar. [72, s.46]

Azərbaycan əzəli torpağı olan Qarabağı işğaldan azad etmək məqsədi ilə başladığı mübarizə türk xalqı tərəfindən həyəcanla qarşılandı. Türk xalqı tarix boyu olduğu kimi II Qarabağ savaşında da Azərbaycana dəstək olmuşdur. Mənəvi dəstək məqsədi ilə Türkiyə küçələrində Türkiyə Azərbaycan bayrağı birlikdə dalğalanırdı. Ermənistanın törətdiyi müharibə cinayətlərinə, Azərbaycanda mülki əhalinin erməni hücumları nəticəsində öldürülməsinə diqqət çəkmək və etiraz etmək məqsədi ilə Türkiyənin müxtəlif şəhərlərində Azərbaycana dəstək yürüşləri keçirilirdi. [72, s.64]

Türk Qızıl Aypara Cəmiyyəti tərəfindən 4 yük maşınından ibarət humanitar yardım 14 oktyabr 2020-ci il tarixində Bakı şəhərində çatdırılmışdır. İlk yardımda 250 çadır, 500 çarpayı, 3000 ədyal və 288 mətbəx ləvazımatı göndərildi. [72, s.64] 22 oktyabr 2020-ci ildə 100 ədyal, 690 çarpayı, 690 mətbəx ləvazimatı, 192 gigiyena dəsti,

13000 dezinfeksiyaedici vasitə, 6940 üzlük və 17466 ədəd geyimdən ibarət ikinci yardım Bakıya çatdırıldı. [72, s.64]

11 yük maşından ibarət 870 çarpayı, 520 mətbəx ləvazimatı, müxtəlif ərzaq, qeyri-ərzaq və sağlamlıq materialların olan üçüncü yük maşını 2020-ci il noyabrın 3-də Azərbaycana çatdırıldı. [72, s.65]

Bütün bunlar "bir millət-iki dövlət" ifadəsinin reallaşmasına sübut idi. Bu dövrdə hər iki ölkənin cəmiyyətləri bir birinə yaxınlaşdı. Cəmiyyətin yaxınlaşması dövlət səviyyəsində münasibətlərə müsbət təsir göstərdi. [72, s.65]

Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin birgə imzaladıqları bəyanata əsasən 10 noyabr 2020-ci il tarixində Moskva vaxtı ilə saat 00.00-dan etibarən Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olundu. Həmin tarixdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev televiziyada bəyanatın tam mətni ilə çıxış etdi, öz çıxışında Türkiyə və Rusiya prezidentlərinin məsələnin sülh yolu ilə həll olunması üçün göstərdikləri səylərini yüksək qiymətləndirdi. Həmçinin Bəyanatın "Münaqişə tərəflərinin razılaşmalara əməl etməsinə nəzarətin səmərəliliyinin artırılması məqsədilə atəşkəsə nəzarət üzrə sülhməramlı mərkəz yaradılır" bəndinə əsasən Prezident Rusiya və Türkiyə hərbçilərinin bu mərkəzdə fəaliyyət göstərəcəyini və Türkiyənin rəsmi qaydada bu münaqişənin gələcək həlli və atəşkəsə nəzarət etmək işində rol oynayacağını bildirmişdir. [20]

Müharibə bitdikdən sonra da Azərbaycan Türkiyə münasibətləri güclənməkdə davam edir. 15 iyun 2021-ci ildə qardaş dövlətlərin prezidentləri Azərbaycanın işğaldan azad olunmuş mədəniyyət paytaxtı Şuşada "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi" imzaladılar. Şuşa bəyannaməsi Azərbaycan Respublikası və Türkiyə Respublikasının müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı kimi milli maraqların ikitərəfli və çoxtərəfli formatlarda həmrəylik və

qarşılıqlı yardım edilməsi, iki ölkə arasındakı dostluq və qardaşlıq münasibətlərin müttəfiqlik səviyyəsinə qaldırılması, hər iki ölkənin siyasi, iqtisadi, müdafiə, mədəni, humanitar, səhiyyə, təhsil, sosial, gənclər və idman sahələrindəki əlaqələrinin genişləndirilməsi baxımından çox əhəmiyyətli hesab edilir. [4]

# NƏTİCƏ

Dissertasiya işinin yazılması üçün edilən araşdırmalardan sonra aşağıdakı nəticələrə gəlmək olar:

- 1990-cı ilin əvvəllərindən Ermənistan və Azərbaycan arasında Dağlıq Qarabağ münaqişəsi regional siyasi fikir ayrılıqlarının mərkəzində dayanırdı. Qarabağ problemi hər iki ölkəyə müxtəlif dərəcədə ziyan vurur, regional inteqrasiyanın inkişafına mənfi təsir göstərirdir. Qeyd olunan problem həm Qara dəniz, həm də Xəzər hövzəsinin iqtisadi inkişafına, regional inteqrasiyasına və harmoniyasına ən mühüm maneələrdən biri olmuşdur. Qarabağ yerləşdiyi geosiyasi məkan səbəbi ilə dünya dövlətlərini üçün önəmli yer tutur. Bu səbəblərdən böyük dövlətlər bu torpaqları nəzarətdə saxlamağa çalışmışdır. Türkiyə Cənubi Qafqazda baş verən proseslərə həmişə həssaslıqla yanaşıb. Enerji resurslarına ciddi ehtiyacı olan və müəyyən qədər Rusiyadan asılı olan Türkiyə üçün Cənubi Qafqaz müttəfiqləri olan Azərbaycan və Gürcüstan olmadan Türkiyənin Mərkəzi Asiyadan alternativ karbohidrogen tədarükü çətinləşir.
- Türkiyə-Azərbaycan əlaqələri müxtəlif istiqamətlərdə inkişaf etmişdir. 1991-ci ildən Türkiyənin Azərbaycanın müstəqilliyini tanıması və bundan sonra diplomatik əlaqələrin inkişaf etdirilməsi, müxtəlif sənədlərin imzalanması əlaqələrin təməlini təşkil etmişdir. Bu istiqamətlərdən biri də iqtisadi sahədə mövcud olan əlaqələrdir. Müstəqilliyin ilk illərində zəif olsa da, artıq siyasi sahədə əlaqələrin möhkəmlənməsi və hər iki ölkənin mənfəətinə uyğun olan iqtisadi əməkdaşlıq indiki dövrdə daha çox inkişaf etdirilmişdir. Türkiyə Azərbaycanda qeyri-neft sektoruna, Azərbaycan isə Türkiyədə enerji sektoruna investisiya qoyması iqtisadi əlaqələri möhkəmləndirmişdir.
- Müstəqilliyin ilk illərində hələ tam formalaşmamış Silahlı Qüvvələrin mövcud olduğu bir dövrdə, Azərbaycan ərazisinin 20 faizi Ermənistan tərəfindən işğal olundu. Sonrakı dövrdə Azərbaycanın hərbi gücünün artırılması üçün Türkiyə ilə əməkdaşlıq istiqamətləri genişləndi. "Hərbi təhsil sahəsində əməkdaşlıq haqqında" müqavilə, "Strateji Tərəfdaşlıq və Qarşılıqlı Yardım Sazişi", "Hərbi

təlim, texniki və elmi sahədə əməkdaşlıq haqqında Saziş" əlaqələrin hüquqi bazasını formalaşdırmış, keçirilən hərbi təlimlər isə əlaqələrin genişlənməsinə səbəb olmuşdur.

- Sosial-mədəni sahədə əməkdaşlıq müxtəlif təşkilatlar çərçivəsində, Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY), Türkdilli Ölkələrin Parlament Assambleyasi (TÜRKPA), Türk Dövlətləri Təşkilatı, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu, Türk Akademiyası və digər təşkilatlar vasitəsi ilə inkişaf etmişdir.
- 27 sentyabr 2020-ci ildə Ermənistanın Azərbaycana qarşı əl atdığı növbəti təxribatlara cavab olaraq əks-hücum əməliyyatlarının başlaması və daha da alovlanaraq müharibəyə çevrilməsi bəzi dövlətlər və təşkilatların atəşkəs çağırışları etməsi, regiondakı enerji layihələrinin hədəf alınması və digər səbəblər dünya gündəmində əsas məsələlərdən birinə çevrildi. Atəşkəs məsələsində 3 dəfə 10 oktyabr, 17 oktyabr, 26 oktyabr tarixlərində ATƏT-in Minsk qrupuna daxil olan Rusiya, ABŞ və Fransa vasitəsi ilə razılaşma olsa da, Ermənistan tərəfindən hərbi əməliyyatlar dayandırılmadı. Ermənistanın "yeni torpaqlar üçün yeni hücumlar" siyasəti, hərbi obyektlərdən uzaqda yerləşən yaşayış məntəqələrini bombardman etməsi, Azərbaycanın isə BMT Təhlükəsizlik Şurasının 822, 853, 874, 884 saylı qətnaməsini əsas götürərək öz torpaqlarını erməni işğalçılarından azad etmək məsələsində təkidi, tərəflərin ortaq qərara gəlmə ehtimalını zəiflədən, əksinə bir tərəfin qalıb olması ilə nəticələnəcəyi göstərirdi.
- Müharibə haqlı və inanclı, əvvəlkindən daha güclü və qərarlı, Türkiyənin dəstəyini kifayət qədər hiss edən Azərbaycanın hərbi və psixologi üstünlüyü ilə davam etdiyi vaxt xüsusi önəm daşıyan Şuşanın erməni işğalından 8 noyabr tarixində azad edilməsi həm hərbi-strateji, həm də mənəvi uğur idi. 10 noyabr 2020-ci ildə isə Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin imzaladığı bəyanat ilə müharibə sona çatdı. Bu hadisə Ermənistanda narazılıqlara səbəb

olsa da, Azərbaycan xalqı tərəfindən qələbə sevinci ilə qarşılandı. Bəyanatda Azərbaycanın ən böyük uğuru Ağdam, Kəlbəcər və Laçın rayonlarının hərbi əməlliyyat həyata keçirmədən geri qaytarılması oldu.

- Bu prosesin ən vacib nəticələrindən biri də Cənubi Qafqazda Rusiya və Türkiyənin xüsusən hərbi mövqelərini gücləndirməsi oldu. Türkiyənin Cənubi Qafqazda baş verən proseslərdə söz sahibi və nəticələri müəyyənləşdirən ölkə olması, bunu bir NATO ölkəsi olaraq bacarması, gücünün artmasından və uğurlu siyasət həyata keçirməsindən qaynaqlanır. Türkiyənin Rusiya ilə birlikdə sülh prosesində iştirak etməsi problemlərin ədalətli bir şəkildə həll edilməsi ehtimalını artırır.
- Ümumi olaraq demək olar ki, bu proses və 10 noyabr bəyannaməsi Azərbaycan, Türkiyə və Rusiyanın qazanc əldə etməsi, Ermənistan, Fransa və ABŞ-ın mövqelərinin zəifləməsi ilə nəticələndi. Bundan sonrakı dövrdə dövlətlər sülh bəyannaməsinə riayət edərək, ən gec 5 il ərzində aralarındakı problemi həll edib, regional inteqrasiya nail olmaq üçün çalışmalıdırlar.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI

## Azərbaycan dilində

1. Azərbaycan - Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası (TDƏŞ) münasibətləri / Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi https://mfa.gov.az/az/category/regional-teskilatlar/azerbaycan-turkdilli-dovletlerin-emekdasliq-surasi-tdes-munasibetleri
2. Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında qarşılıqlı hərbi təlim-təhsil haqqında Müqavilə"nin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı. № 514 http://www.eqanun.az/framework/22411
3. Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Mədəniyyət Mərkəzlərinin təsis olunması, iş mexanizmi və fəaliyyətləri haqqında Saziş № 1237-VQ https://e-qanun.az/framework/40360
4. Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi / Azərbaycan Respublikasının Prezidenti 2021 https://president.az/az/articles/view/52122
5. Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında" Müqavilənin təsdiq edilməsi barədə. № 24-IVQ. http://www.e-qanun.az/framework/21158
6. Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının yaradılması haqqında" Birgə Bəyannamənin təsdiq edilməsi barədə. № 25-IVQ http://www.e-qanun.az/framework/21161
7. Azərbaycan Tarixi: 7 cilddə, V cild Bakı:Elm, 2008, 696 s.
8. Azərbaycan və Türkiyə prezidentləri mətbuata bəyanatla çıxış ediblər/ Azərbaycan Respublikasının Prezidenti 2015 https://president.az/az/articles/view/14049

9. Azərbaycan və Türkiyə prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər/ Azərbaycan Respublikasının Prezidenti 2018 https://president.az/az/articles/view/28271
10. Azərbaycan-Türkiyə Mədəniyyət üzrə Birgə Komissiyasının iclası / Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi https://www.medeniyyet.az/page/news/56260/AzerbaycanTurkiye-Medeniyyet-uzre-Birge-Komissiyasinin-iclasi.html
11. Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VIII iclası keçirilib/ Azərbaycan Respublikasının Prezidenti 2020 https://president.az/az/articles/view/35961
12. Bakının qurtuluşu / Azərbaycan Xalq Cümhuriyyəti https://axc.preslib.az/az/page/4QtMe3OaiU
13. Beynəlxalq sülhməramlı əməliyyatlarda iştirak/ Azərbaycan Respublikası Müdafiə Nazirliyi https://mod.gov.az/az/beynelxalq-sulhmeramli-emeliyyatlarda-istirak-027/
14. Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu haqqında / Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu https://itchf.org/en/about-us/
15. BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağ münaqişəsi üzrə Qətnamələri http://anl.az/el/emb/QARABAQ/beynelxalq-senedler/bmt.pdf
16. Əhmədov E. Ermənistanın Azərbaycana təcavüzü: Beynəlxalq təşkilatlar və böyük dövlətlərin siyasəti III kitab. Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, 2015, 368 s.
17. İkinci Qarabağ müharibəsi / Virtual Qarabağ https://www.virtualkarabakh.az/az/post-item/52/2871/ikinci-qarabag-muharibesi.html
18. İlham Əliyev "France 24" televiziya kanalına müsahibə verib / Azərbaycan Respublikasının Prezidenti 2020 https://president.az/az/articles/view/43037

19. İlham Əliyev Bakı-Tbilisi-Qars dəmir yolunun açılış mərasimində iştirak edib/ Azərbaycan Respublikasının Prezidenti 2017 https://president.az/az/articles/view/25639
20. İlham Əliyev xalqa müraciət edib / Azərbaycan Respublikasının Prezidenti 2020 https://president.az/az/articles/view/45924
21. İlham Əliyev xalqa müraciət edib/ Azərbaycan Respublikasının Prezidenti 2020 https://president.az/az/articles/view/40968
22. İlham Əliyev Türkiyənin "TRT Haber" televiziya kanalına müsahibə verib / Azərbaycan Respublikasının Prezidenti 2020 https://president.az/az/articles/view/41763
23. İlham Əliyevin və Baş nazir Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Azərbaycan-Türkiyə sənədlərinin imzalanması mərasimi olmuşdur / Azərbaycan Respublikasının Prezidenti https://president.az/az/articles/view/6050
24. İstanbulda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşü keçirilib/ Azərbaycan Respublikasının Prezidenti 2021 https://president.az/az/articles/view/54183
25. Qarabağda dron müharibəsi: Azərbaycan və Ermənistan arasındakı münaqişəni pilotsuz aparatlar necə dəyişib? / BBC NEWS Azərbaycanca https://www.bbc.com/azeri/azerbaijan-54364458
26. Qasımov M. Azərbaycan-Türkiyə diplomatik-siyasi münasibətləri ( aprel 2020-ci il – dekabr 2022-ci il) Bakı: Mütərcim, 1998, 118 s.
27. Qasımov R. Y. Azərbaycan Xalq Cümhuriyyəti-Osmanlı münasinətləri, Bakı: Mütərcim, 2018, 276 s.
28. Mövlud Çavuşoğlu: Türkiyə Qarabağ məsələsində həmişə qardaş Azərbaycanın yanında olub və olacaq / AzərTac https://azertag.az/xeber/Movlud_CHavusoglu_Turkiye_Qarabag_meselesinde_hemise_qardas_Azerbaycanin_yaninda_olub_ve_olacaq_VIDEO-1518305
29. Neft sektoru / Azərbaycan Respublikasının Prezidenti 2015 https://president.az/az/pages/view/azerbaijan/contract

30. Türk Akademisi / Türk Devletleri Teşkilatı https://www.turkkon.org/tr/iliskili-kurumlar/turk-akademisi_1
31. Türkiyə Respublikası ilə Azərbaycan Respublikası arasında uzunmüddətli iqtisadi əməkdaşlıq proqramı və icra planı, T. C. Resmi Gazete. https://www.resmigazete.gov.tr/eskiler/2012/01/20120120-3-1.pdf
32. Türkiyə-Azərbaycan Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının birinci iclası olmuşdur / Azərbaycan Respublikasının Prezidenti https://president.az/az/articles/view/3388
33. TÜRKPA (Türkdilli Ölkələrin Parlament Assambleyası) / TURKPA 2017 https://turk-pa.org/az/content/about_turkpa
34. Vətən müharibəsi gerçəklərinin əks olunduğu "Fulya" filminin təqdimatı keçirildi / Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi 2021 http://mct.gov.az/az/umumi-xeberler/13854

**Türk dilində**

35. Akpınar E. // Bakü Tiflis Ceyhan BTC Ham Petrol Boru Hattı ve Türkiye Jeopolitiğine Etkileri // Gazi Üniversitesi Gazi Eğitim Fakültesi Dergisi, 2005, c.25, №2, s. 229-248. https://dergipark.org.tr/tr/download/article-file/77260
36. Aliyev'den büyük jest: Bugün Ankara'ya geliyor/ Milliyyet.com.tr 2016 https://www.milliyet.com.tr/siyaset/aliyev-den-buyuk-jest-bugun-ankara-ya-geliyor-2209776
37. Asker A. , Özpınar Z. Azerbaycanı Zafere Götüren Büyük Taarruz: 44 Günlük Savaşın Anatomisi, Avrasya İncelemeleri Dergisi 83-106 s. https://dergipark.org.tr/en/download/article-file/1676673
38. Askerzade A. // NATO Çerçevesinde Azerbaycan-Türkiye Askerî İşbirliği ve Bölgesel Güvenlik Sorunları, Karadeniz Araştırmaları, № 20, 2009, s.1-17. https://www.acarindex.com/dosyalar/makale/acarindex-1423906849.pdf
39. Aslanlı A. / 10. yılında Azerbaycan-Türkiye Stratejik Ortaklık Anlaşması ve ortak askeri tatbikatlar/ Qazqaz Beynəlxalq Münasibətlər və Strateji

Araşdırmalar Mərkəzi 2020
http://qafsam.org/index.php?page=page&id=645&lang=az&lang=az

40. Aslanlı A. // Türkiye-Azerbaycan ekonomik ilişkileri // Yönetim ve Ekonomi Celal Bayar Üniversitesi İktisadi ve İdari Bilimler Fakültesi Dergisi, c. 25, №1, 2018, s. 15-27 https://www.researchgate.net/publication/324812615_TURKIYE-AZERBAYCAN_EKONOMIK_ILISKILERI
41. Aslanlı A. Hesenov İ. Haydar Aliyev dönemi Azerbaycan dış politikası. Ankara: Platin yayınları, 2005, 282 s.
42. Aslanlı A. Yeni küresel mücadilede Kafkasya ve Karabağ sorunu. Ankara: EkoAvrasya yayınları, 2013, 142 s.
43. Büyükbaş N. / Azerbaycan Cumhuriyeti ile Türkiye Cumhuriyeti eğitim ilişkileri / İRS Miras https://irs-az.com/new/files/2017/212/2668.pdf
44. Caferov N. Azerbaycan-Türkiye Askeri İlişkileri / Türkiye & Azerbaycan Dergisi https://www.turkiyeazerbaycan.com/haber/azerbaycan-turkiye-askeri-iliskileri
45. Cumhurbaşkanı Erdoğan: 'Kara gün dostu olduğunu gösterdi'/ Hürriyyet.com.tr 2016 https://www.hurriyet.com.tr/gundem/cumhurbaskani-erdogan-kara-gun-dostu-oldugunu-gosterdi-40069515
46. Çelik D. // XIX ve XX. YÜZYILLARDA AZERBAYCAN - BİRİNCİ BÖLÜM // Bilig, 1996; №3, s. 60-79. https://dergipark.org.tr/tr/download/article-file/234754
47. Eravcı H. M. // Sovyetler Sonrası Azerbaycan -Türkiye Arasındaki Enerji İşbirliği Çalışmaları ve Dış Politikadaki Etkisi // Ulisa: Uluslararası Çalışmalar Dergisi, 2019, c. 3, №1, s. 37-48 https://dergipark.org.tr/en/pub/ulisa/issue/46863/587614
48. Erdoğan N. // TANAP Projesinin Türkiye ve Azerbaycan Enerji Politikalarındaki Yeri ve Önemi // Ömer Halisdemir Üniversitesi İktisadi ve

İdari Bilimler Fakültesi Dergisi, 2017, c.10, №3, s. 10-26. https://dergipark.org.tr/tr/download/article-file/322410

49. Fatullayev R. // Azerbaycan Sovyet Sosyalist Cumhuriyeti’nin Türkiye Temsilcilikleri // Genel Türk Tarihi Araşdırmalar Dergisi, 2021, c. 4, №7, s.317-328. https://dergipark.org.tr/tr/download/article-file/1986919
50. Garibov M. XX. Yüzyılda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ sorunu. Ankara: Atatürk Araşdırma Merkezi, 2017, 374 s.
51. E. / Dağlık Karabağ: Türkiye, Azerbaycan'ın askeri kapasitesini geliştirmesinde nasıl rol oynadı? / BBC Türkçe 2020 https://www.bbc.com/turkce/haberler-turkiye-54379105
52. Göksedef E. / Türkiye-Ermenistan ilişkileri: Son 30 yılda neler yaşandı? 2021 https://www.bbc.com/turkce/haberler-turkiye-59802160
53. Gürler E. Azerbaycan – Türkiye ilişkileri (1991-2003) siyasi, askeri, sosyo-kültürel ve ekonomik açıdan: Magistrlıq dissertasiyası. Nevşehir, 2015, 220 s. http://acikerisim.nevsehir.edu.tr/bitstream/handle/20.500.11787/239/tolga_gurler_tez.pdf?sequence=1&isAllowed=y
54. İsmayıl Musa // Azerbaycan-Osmanlı Siyasi-Askeri İlişkileri (1917-1918) // Belleten, 2000, c.64, №240, s. 509-522 https://belleten.gov.tr/tam-metin/2561/tur
55. Milletler arası andlaşma. T. C. Resmi Gazete, Ankara,№ 21474 https://www.resmigazete.gov.tr/arsiv/21474.pdf
56. Milletler arası andlaşma. T. C. Resmi Gazete, Ankara,№ 21945 https://www.resmigazete.gov.tr/arsiv/21945.pdf
57. Mirzaliyeva F. // Azerbaycan Enerji Politikaları ve Türkiye ile İş Birliği // İnsamer, 2016 https://www.insamer.com/tr/azerbaycan-enerji-politikalari-ve-turkiye-ile-is-birligi_430.html
58. Mustafa Kemal Atatürk 2019” Ortak Askeri Tatbikatı / Türkiye & Azerbaycan Dergisi https://www.turkiyeazerbaycan.com/haber/mustafa-kemal-ataturk-2019-ortak-askeri-tatbikati

59. Mustafazade T.T // 18. yy'da Osmanlı-Azerbaycan İlişkilerinin Başlıca Merhaleleri // Karadeniz Araştırmaları, 2004, №1, s. 21-36. http://www.karamdergisi.com/Makaleler/1356851388_mustafazade.pdf
60. Oğuzlar kimdir? Oğuz boyları ve Oğuzların kültürü tarihçesi, yaşamları / Akşam.com.tr 2019https://www.aksam.com.tr/tarih/oguzlar-kimdir-oguz-ne-demek-tarihte-oguz-boylari-ve-oguzlarin-ozellikleri/haber-970712
61. Sarıahmetoğlu N. // Karabağ Sorununun Çözüm Sürecinde Türkiye ve Rusya // Marmara Türkiyat Araştırmaları Dergisi, 2016, c.3, s.93-119 https://dergipark.org.tr/tr/download/article-file/312088
62. Şimşir B. N. // Azerbaycan: Kızılordu'nun Azerbaycan'ı işgali ve Türkiye'nin Tepkisi (Ocak 1990) // Atatürk Dergisi, 2016, c. 1, №1, s. 57-93. https://dergipark.org.tr/tr/download/article-file/26191
63. TurAz Kartalı 2020" tatbikatı! Türk F-16'ları Azerbaycan semalarında / A Haber 2020 https://www.ahaber.com.tr/dunya/2020/08/10/turaz-kartali-2020-tatbikati-turk-f-16lari-azerbaycan-semalarinda
64. TURAZ Şahini-2021 Tatbikatı devam ediyor / Defence Türk Net 2021 https://www.defenceturk.net/turaz-sahini-2021-tatbikati-devam-ediyor
65. Tuzcuoğlu F. / Azerbaycan-Türkiye eğitim ilişkileri ve TÜDİFAK örneği / Bakı: UNEC, 2019, s. 93-123 https://www.researchgate.net/publication/338826225_Azerbaycan-Turkiye_Egitim_Iliskileri_ve_TUDIFAK_Ornegi
66. Türk Devletleri Teşkilatı / Türk Devletleri Teşkilatı https://www.turkkon.org/tr/turk-konseyi-hakkinda
67. Türkiye - Azerbaycan Siyasi İlişkileri / Türkiye Cumhuriyyeti Bakü Büyükelçiliği 2018 http://baku.emb.mfa.gov.tr/Mission/ShowInfoNote/170188
68. Türkiye Cumhuriyeti ile Azerbaycan Cumhuriyeti Arasında 13 Kasım 2013 Tarihinde Düzenlenen Yüksek Düzeyli Stratejik İşbirliği Konseyi Üçüncü Toplantısı Sonuçlarına İlişkin Ortak Açıklama, 13 Kasım 2013/ Türkiye Cümhuriyyeti Dışişleri Bakanlığı https://www.mfa.gov.tr/turkiye-cumhuriyeti-

ile-azerbaycan-cumhuriyeti-arasinda-13-kasim-2013-tarihinde-duzenlenen-yuksek-duzeyli-stratejik-isbirligi-ko.tr.mfa

69. Türkiye ve Azerbaycan'ın "Mustafa Kemal Atatürk 2021" tatbikatı tamamlandı / Kırım Haber Ajansı 2021https://qha.com.tr/haberler/guvenlik/turkiye-ve-azerbaycan-in-mustafa-kemal-ataturk-2021-tatbikati-tamamlandi/330918/

70. Türksoy hakkında / Uluslararası Türk Kültürü Teşkilatı https://www.turksoy.org/tr/turksoy/about

71. Yerli üretim Mayın Temizleme Aracı MEMATT Azerbaycan'da tüm testleri geçti / Defence Turk https://www.defenceturk.net/yerli-uretim-mayin-temizleme-araci-rnematt-azerbaycanda-tum-testleri-gecti

72. Yukarı Karabağ'da 44 Günde Gelen Zafer: Türkiye - Azerbaycan kardeşlığının nişanesi, Ankara: Cumhurbaşkanlığı iletişim başkanlığı yayınları, 2021, 291 s. https://www.iletisim.gov.tr/images/uploads/dosyalar/Yukar%C4%B1_Karabag%CC%86_Tu%CC%88m_Diller_Dikey_WEB.pdf

73. Zirveler / Türk Devletleri Teşkilatı https://www.turkkon.org/tr/zirveler